

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 34 (876) ▪ 7 sentyabr 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

## Prezident İlham Əliyevin cənub bölgəsinə səfəri



Sentyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Cəlilabad rayonuna səfər edib. O, Cəlilabad və Lənkəran rayonlarına səfəri çərçivəsində Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 22,2 kilometrlik Lənkəran-Masallı hissəsinin açılışında iştirak edib. Cəlilabadda olarkən şəhərin içməli su təchizatı sisteminin və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi mərasimində iştirak edən dövlət başçısı sonra Cəlilabad Telekommunikasiya Qovşağının əsaslı şəkildə yenidən qurulan inzibati və texnoloji binasında yaradılmış şəraitlə tanış olub.

Prezident İlham Əliyev əsaslı şəkildə yenidən qurulmuş Cəlilabad-Astanlı-Cəngan-Soltankənd avtomobil yolunun açılışında iştirak etdikdən sonra Cəlilabadda «Avanqard» Məhdud Məsuliyyətli Cəmiyyətinin dənli və paxlalı bitkilərin təmizlənməsi və qablaşdırılması müəssisəsinin istifadəyə verilməsi mərasiminə qatılıb. Dövlət başçısına məlumat verilib ki, bu emal kompleksinin ümumi ərazisi 5 hektardır. Kompleksin tərkibinə taxıl anbarı, dəyirman, paxlalı bitkilər və un məmulatlarının qablaşdırılması zavodu daxildir.

Prezident İlham Əliyev Cəlilabada səfəri çərçivəsində «Günəşli-Aqro» Məhdud Məsuliyyətli Cəmiyyətin aqroparkında yaradılan şəraitlə də tanış olub. Qeyd olunub ki, Cəlilabadın Günəşli kəndində müasir tələblərə cavab verən aqroparkın yaradılması ərzaq təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə mal-qaranın cins tərkibinin yaxşılaşdırılması baxımından da böyük əhəmiyyətə malikdir. Aqroparkın sahəsi 1600 hektardır. Onun 1200 hektarında müasir suvarma - pivot sistemləri quraşdırılıb. Ümumi dəyəri 12,7 milyon manat olan bu sistemin qurulmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 4 milyon manat güzəştli kredit verilib. Aqroparkın torpaqlarının 563 hektarında arpa, 530 hektarında şəkər çuğunduru, 219 hektarında buğda, 160 hektarında pambıq, 68 hektarında qarğıdalı, 60 hektarında isə yonca əkilib. Əkilmiş sahələrdən 1745 ton arpa, 610 ton buğda, 1278 ton qarğıdalı, 20 min ədəd yonca və 30 min ədəd saman bağlaması götürülüb. 2018-ci ildə 173 hektarda pambıq, 240 hektarda buğda, 507 hektarda arpa, 80 hektarda qarğıdalı, 530 hektarda şəkər çuğunduru və 70 hektarda yonca əkilməsi nəzərdə tutulur.

Sentyabrın 2-də Lənkəran rayonuna səfər edən Prezident İlham Əliyev rayonda görülən abadlıq-quruculuq işləri ilə tanış olub. Dövlət başçısı fermer Araz Yaqubova aid «Yaşıl çay» MMC-nin plantasiyasında görülən işlərlə tanış olub. Bildirilib ki, fermer təsərrüfatının 150 hektara yaxın torpaq sahəsi var. 2011-ci ildən başlayaraq burada yüksək məhsuldarlığı ilə seçilən «Kolxida» sortundan ibarət çay plantasiyaları salınıb. 2015-ci ildə - ölkədə ilk dəfə seçmə üsulu ilə yığım aparan «Yaşıl çay» fermer təsərrüfatının sahələrindən bu il daha bol məhsul gözlənilir. Təsərrüfatın ümumi çay əkini sahəsi 61 hektardır. Gələcəkdə isə çay sahələrinin ümumi sahəsi 100 hektara çatdırılacaq. Yaşıl çay yarpağı müəssisənin nəzdindəki istehsal sahəsində emal edilir və qablaşdırılır. Burada yüksək keyfiyyətli «Lənkəran çayı» brendi altında müxtəlif çeşiddə çaylar istehsal edilir.

Dövlətimizin başçısı «Yaşıl çay» MMC-nin tut tingləri əkilən sahəsinə də baxıb. Bildirilib ki, hazırda ölkəmizdə baramaçılığın yem bazasının formalaşdırılması, tut tinglərinin əkilib-becərilməsi, barama toxumçuluğunun təşkili və digər istiqamətlər üzrə müvafiq tədbirlərin həyata keçirilməsi davam etdirilir. Baramaçılığın inkişaf etdirilməsi üçün intensiv tipli yeni tut bağlarının salınması məqsədilə Çindən ölkəmizə gətirilən tinglərin 40 mini bölgü əsasında Lənkəran rayonuna göndərilib. Həmin tinglərin 12 mini rayonun «Yaşıl çay» fermer təsərrüfatına verilib. Prezident İlham Əliyev Cənub bölgəsinə səfəri zamanı «Astaraçay» Məhdud Məsuliyyətli Cəmiyyətinin plantasiyaları ilə də tanış olub. Məlumat verilib ki, respublika üzrə mövcud 1016 hektar çay sahəsinin 568 hektarı Lənkəran, 345 hektarı Astara, 60 hektarı Zaqatala və 43 hektarı Masallı rayonlarının ərazisindədir. Bu ilin iyul ayınadək mövcud çay sahələrindən 444,1 ton yaşıl çay yarpağı istehsal olunub və hazırda bu proses davam etdirilir. Lənkəran rayonu ərazisində 568 hektar çay sahəsinin 289 hektarı «Astaraçay» MMC-yə məxsusdur. 2010-cu ildə təsis edilən «Astaraçay» MMC-də quru çay istehsalı üçün istifadə edilən xammal yalnız Azərbaycanın subtropik bölgəsi olan Astara və Lənkəran rayonlarındakı plantasiyalardan tədarük olunur. Bu plantasiyalarda əkilən «Kolxida» çay toxumları Gürcüstanın Batumi şəhərinin Çayçılıq Elmi-Tədqiqat İnstitutunun tədris-təcrübə sahəsindən alınıb. Dörd ildir ki, çay sahələrində Almaniyanın LACON şirkəti tərəfindən ekoloji müşahidələr aparılır. Astara rayonu ərazisində, həmçinin Koreya Respublikası şirkətinin layihəsi əsasında çay fabriki inşa edilib. Ərazisi 5 hektar olan fabrikdə xaricdən gətirilən ən müasir avadanlıq quraşdırılıb. Fabrik gündə 10 ton yaşıl çay emal etmək gücünə malikdir. Burada çəkisi 100, 200 və 400 qram olan çay bükümləri hazırlanır.

Azərbaycan Prezidenti Lənkəranda «Cənub-Aqro» MMC-nin çəltik sahələrinə baxıb və çəltik zavodunun açılışında iştirak edib. Dövlət başçısına məlumat verilib ki, bu il «Cənub-Aqro» MMC tərəfindən ümumilikdə 100 hektar sahədə çəltik əkilib. Bunun da 35 hektarı Girdəni, 65 hektarı isə Siyavar kəndləri ərazisindədir. Gələn il isə müəssisə tərəfindən əlavə 127 hektar sahədə çəltik əkilməsi nəzərdə tutulur. Rayonda çəltikçilik əsasən Girdəni, Veravul, Ürgə, Siyavar, Hirkan, Xolmili, Şıxəkaran, Mamusta, Separadi və digər kəndlərdə inkişaf etdirilir. Bu da çəltikçiliyin gəlirli sahə olması ilə bağlıdır. Belə ki, hər hektardan 50-60 sentner məhsul götürülür və maya dəyərindən 10-15 dəfə bahasına satılır. Ekoloji cəhətdən təmiz və keyfiyyətli olduğu üçün bazarda yerli düyüyə tələbat da böyükdür. Çəltik əkini əsasən istifadəsiz qalan bələdiyyə və əhaliyə dövlət tərəfindən verilən pay torpaqlarında aparılır. Hazırda Lənkəranda 526,5 hektarda çəltik əkilib. Fermerlər tərəfindən çəltik əkini və yığımı, həmçinin becərmə və gübrə səpmək üçün xaricdə istehsal olunan yeni texnikalar gətirilib.

Diqqətə çatdırılıb ki, Lənkəranda «Cənub-Aqro» MMC-nin çəltik zavodunun inşası də mühüm əhəmiyyəti ilə seçilir. Zavodun tikintisinə 2016-cı ilin noyabrında başlanıb və bu ilin avqustunda başa çatdırılıb. Zavodun aylıq emal gücü 300 ton və düyüqurutma gücü isə 900 tondur. Müəssisədə 15 nəfər daimi işlə təmin edilib. Gələcəkdə müəssisənin gücünün iki dəfə artırılması və işçilərin sayının 60 nəfərə çatdırılması nəzərdə tutulub. Emal edilən düyünün daxili bazarda tələbata uyğun olaraq satışı üçün müxtəlif şirkətlərlə danışıqlar aparılıb və «Made in Azerbaijan» brendi ilə xarici bazarlara ixracı üçün sənədləşmə işləri davam etdirilir. Gələcəkdə müəssisənin ərazisində hazır məhsul anbarı, satış mərkəzi və əlavə istehsal sahəsinin yaradılması planlaşdırılır.

Prezident İlham Əliyev sentyabrın 2-də Lənkəranda «Xəzər Palace» otel kompleksinin açılışında iştirak edib, Lənkəranda «Gilan Orchards» MMC tərəfindən salınmış sitrus bağları ilə tanış olub. Diqqətə çatdırılıb ki, rayonun Sütəmurdov kəndi ərazisində 15 hektar sahədə əkilən bu növ sitrus bağından ötən il 1,5 ton məhsul yığılıb. Bu il isə Sütəmurdov kəndi ərazisində əlavə 3, Siyavar kəndində isə 5 hektar sahədə yeni sitrus bağları salınıb.Yeni sitrus təsərrüfatının ümumi sahəsi 100 hektardır. Hazırda ərazidə Koreya Respublikasından gətirilən 45 min «Hallabonq» sitrus meyvəsinin ağacları əkilib. 100 hektar sitrus təsərrüfatından, ümumilikdə, 4 min ton məhsul götürülməsi nəzərdə tutulub. Gələcəkdə təsərrüfatın 500 hektaradək genişləndirilməsi, o cümlədən dağətəyi ərazilərdə terras əkin sxemləri ilə sitrus sahələrinin yaradılması istiqamətində hazırlıq işləri aparılır.

## «Xankəndi» sualtı tikinti gəmisinin təqdimat mərasimi keçirilib

Sentyabrın 6-da Bakı gəmiqayırma zavodunda BP şirkətinin sifarişi ilə «Şahdəniz-2» layihəsi çərçivəsində inşa edilmiş «Xankəndi» sualtı tikinti gəmisinin təqdimat mərasimi olub. Prezident İlham Əliyev mərasimdə iştirak edib.

Qeyd edilib ki, 2014-cü il aprelin 17-də «Bakı Gəmiqayırma Zavodu» MMC sualtı tikinti gəmisinin layihələndirilməsi və tikintisi barədə «Şahdəniz» qaz yatağının işlənilməsi və istismarı üzrə icraçı olan «BP Exploration» MMC ilə dəyəri 400 milyon dollara yaxın olan müqavilə bağlanıb. «Xankəndi» sualtı tikinti gəmisinin iki iri gövdə bölməsi müvafiq müqavilə əsasında Sinqapurda inşa edilərək təhlükəsiz şəkildə Bakıya gətirilib və bu iki hissə Bakı gəmiqayırma zavodunda tikinti-quraşdırma sahəsinə çıxarılaraq inşası başa çatmış burun, yaşayış və idarəetmə blokları ilə birləşdirilib və müvafiq inteqrasiya işləri yerinə yetirildikdən sonra ötən ilin mayında suya salınıb. Bu gəmi xüsusi olaraq nəhəng «Şahdəniz mərhələ 2» işlənilmə layihəsinin sualtı qurğularını quraşdırmaq üçün inşa edilib.

Prezident İlham Əliyevə «Şahdəniz-2» layihəsi çərçivəsində görülən işlərlə bağlı da məlumat verilib. Layihə üzrə işlərin 96 faizdən çox hissəsi tamamlanıb. Fəaliyyət dövründə Azərbaycanda 24 min yeni iş yeri açılıb. «Şahdəniz mərhələ 2» üzrə işlənilmə planına bir-birinə körpü ilə birləşdirilən iki yeni hasilat platforması, iki yarımdalma qazma qurğusu ilə qazılan ən az 26 sualtı quyu, suyun 500 metrədək dərinliyində quraşdırılan 500 kilometr uzunluğunda boru kəmərləri və Səngəçal terminalının genişləndirilməsi işləri daxildir. «Şahdəniz mərhələ 2» çərçivəsində əsas diqqət ildə 16 milyard kubmetr qaz və gündə 120 min barrelədək kondensat əlavə etməklə hazırda istismar olunan lay intervallarında qalan ehtiyatlara yönəlib. Buna görə ildə 6 milyard kubmetr qaz Türkiyəyə nəql ediləcək və qalan həcm, yəni, ildə 10 milyard kubmetr Avropa alıcılarına çatdırılacaq. Dövlətimizin başçısı «Xankəndi» sualtı tikinti gəmisinin rəmzi istismara verilməsi mərasimini bildirən lenti kəsib. Prezident İlham Əliyev «Xankəndi» sualtı tikinti gəmisinin istismara verilməsi mərasimində çıxış edib.

## Azərbaycan Prezidenti Türkiyənin xarici işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib. Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla bu yaxınlarda Qurban bayramı ilə əlaqədar telefonla danışdıqlarını, hər iki dövlət başçısının təmaslarının daimi xarakter daşıdığını vurğulayıb. Azərbaycan-Gürcüstan-Türkiyə xarici işlər nazirlərinin Bakıda keçiriləcək üçtərəfli görüşünün əhəmiyyətinə toxunan dövlətimizin başçısı bu görüşün ölkələrimiz arasında ikitərəfli əlaqələrin müzakirəsi üçün də yaxşı fürsət yaratdığını qeyd edib. Dövlətimizin başçısı üç ölkə arasında aparılan işlərin həm ölkələrimiz, həm də ümumilikdə bölgə üçün böyük əhəmiyyət daşıdığını, bu formatda artıq bir neçə ildir ki, görüşlər keçirildiyini və həm siyasi, həm də iqtisadi məsələlərin həlli üçün önəmli üçtərəfli format kimi özünü təsdiqlədiyini bildirib.

Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Azərbaycan-Gürcüstan-Türkiyə xarici işlər nazirlərinin üçtərəfli görüşünün ölkələrimizin yerləşdiyi bölgənin sabitliyi və iqtisadi inkişafı üçün önəmli olduğunu vurğulayıb. Görüşdə ölkələrimiz arasında əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

### BU NÖMRƏMİZDƏ

ASİYA İNKİŞAF BANKI: «NEFT İQTİSADİYYATI ÖZ YERİNİ SABİT VƏ DAYANIQLI QEYRİ-NEFT İQTİSADİYYATINA VERİR» 2

ELEKTRON TİCARƏT: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR 3

FİZİKİ ŞƏXSLƏRİN GƏLİR VƏ HÜQUQİ ŞƏXSLƏRİN MƏNFƏƏT VERGİSİNİN HESABLANMASI 4

KİÇİK SAHİBKARLAR ÜÇÜN BƏLƏDÇİ 5

## Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət dəstəyi heç bir ölkədə yoxdur

### *Prezident İlham Əliyevin sədrliyi ilə Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib*

Dövlət başçısı müşavirəni giriş nitqi ilə açaraq bildirib ki, son vaxtlar ölkəmizdə aqrar sahəyə dövlətin dəstəyi hesabına diqqət artır və öz nəticəsini verir: «Əlbəttə, ilk növbədə, biz ərzaq təhlükəsizliyi məsələlərini həll etməli idik və bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Bununla bərabər, biz kənd təsərrüfatının bütün ənənəvi sahələrini inkişaf etdirməli idik. Əslində 2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının da əsas məqsədi bundan ibarət idi ki, regionlar inkişaf etsin, regionlarda infrastruktur layihələri icra edilsin, sahibkarlıq üçün şərait yaradılsın və ölkə iqtisadiyyatı şaxələndirilmiş şəkildə inkişaf etsin. Bu gün tam əminliklə deyə bilərik ki, biz bu məqsədlərə çatmışıq».

Qeyd edilib ki, infrastruktur olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Ona görə də 2004-cü ildə və ondan sonra 2009-cu və 2014-cü illərdə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çox konkret proqramlar idi: «Proqramın icrasına başlayarkən Azərbaycanda vaxtilə yaradılmış infrastruktur, demək olar ki, köhnəlmişdi. Biz özümüzü elektrik enerjisi ilə, qazla təmin edə bilmirdik, idxaldan asılı idik. Belə olan halda, sənayenin, kənd təsərrüfatının inkişafından söhbət gedə bilməzdi. Biz, ilk növbədə, inkişaf üçün baza yaratdıq. Son illərdə 20-dən çox elektrik stansiyası tikilib. Biz indi nəinki özümüzü təmin edirik, elektrik enerjisini xarici ölkələrə də ixrac edirik». Prezident qazlaşdırmanın da səviyyəsinin artdığını, ölkə üzrə 93 faizə çatdığını vurğulayıb. Qeyd edib ki, növbəti illərdə bütün bölgələrdə qazlaşdırma işləri davam etdiriləcəkdir.

**Davamı 2-ci səhifədə**

# Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət dəstəyi heç bir ölkədə yoxdur

*Prezident İlham Əliyevin sədrliyi ilə Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib*

**Əvvəli 1-ci səhifədə**

Son 13 ildə yol infrastrukturu da yenidən qurulub, 11 min kilometrdən çox yol salınıb və bu yollar bütün bölgələri bir-biri ilə bağlayır. «Şəhərlərarası yollar, magistral yollar, qonşu ölkələrlə əlaqə yaradan yollar, kənd yolları ilə bağlı işlər çox geniş vüsət alıbdır. Bu, həm sosial layihələrdir, eyni zamanda, iqtisadi layihələrdir. Çünki fermerlər, sahibkarlar yaxşı bilirlər ki, yol olmadan inkişafdan söhbət gedə bilməz. Çünki gözəl yol kənd təsərrüfatının da, turizmin də inkişafına çox böyük təkan verir. Bu gün biz bunu əyani şəkildə görürük. Bir sözlə, biz sürətli iqtisadi inkişaf üçün əvvəlki illərdə yeniləşmiş, müasir infrastruktur yaratdıq ki, bundan sonra bunun əsasında uğurla inkişaf edə bilək».




> Ölkəmizdə fermerlər bütün vergilərdən azad olunublar, təkcə torpaq vergisindən başqa. Əlbəttə ki, bu, dövlət tərəfindən fermerlərə göstərilən böyük dəstəkdir

Prezident İlham Əliyev görülən bu işlərlə paralel olaraq sosial infrastruktur məsələlərinə də böyük diqqət göstərildiyini diqqətə çatdırıb: «Bütün işlərimizin, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı yaxşı yaşamalıdır və yaxşı yaşamaq üçün imkan olmalıdır. Ona görə sosial məsələlərin həlli, xüsusilə təhsillə, səhiyyə ilə bağlı məsələlər həmişə bizim üçün prioritet olmuşdur. Son illərdə 3 mindən çox məktəb, 600-dən çox tibb mərkəzi yaradıldı və onlar bu gün insanlara xidmət göstərir. Eyni zamanda, bölgələrdə yaradılmış şərait böyük şəhərlərə miqrasiyanın da qarşısını alır. Biz artıq bunu da görürük ki, əvvəlki illərdə Bakıya bütün bölgələrdən müşahidə olunan miqrasiya indi azalıbdır, eyni zamanda, əks proses də başlayıb. İndi insanlar şəhərlərdən kəndlərə qayıdırlar. Çünki kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar yaradılıb. Əgər vaxtilə biz infrastruktur layihələrinə böyük vəsait ayırmasaydıq, bu gün inkişaf o qədər də sürətli olmazdı. Biz son illərdə ölkəmizdə işsizliyin kəskin azalmasına nail olduq və Azərbaycan bu göstəriciyə görə dünya miqyasında qabaqcıl yerlərdədir. Azərbaycanda işsizlik təqribən 5 faiz səviyyəsindədir. Xüsusilə bu gün bu qədər ki, inkişaf var, kənd təsərrüfatına bu qədər vəsait qoyulur, son 2 il ərzində minlərlə ictimai iş yeri yaradılıbdır, işləmək istəyən özü üçün iş tapar. Yaradılan 1 milyon 600 mindən çox iş yeri də bizim siyasətimizin əlamətidir, onun təzahürüdür».

Sahibkarlığa dövlət dəstəyindən danışan Prezident İlham Əliyev fermerlərə hərtərəfli qayğının göstərildiyini vurğulayıb: «Fermerlərin, sahibkarların işini yüngülləşdirmək üçün bir çox önəmli tədbirlər görülmüşdür. İlk növbədə, onlara maddi resurs verilməli idi. Biz də bunu edirik. Son illər ərzində sahibkarlara dövlət tərəfindən iki milyard manatdan çox güzəştli kreditlər verilmişdir və əlbəttə, sahibkarlar da öz vəsaitlərini qoyublar. Bu təşəbbüs nəticəsində ölkə iqtisadiyyatının real sektoruna ümumilikdə təqribən 4 milyard manat, bəlkə də ondan da çox vəsait qoyulmuşdur. Kreditlər əsasən regionlara, kənd təsərrüfatına, emal sənayesinə ayrılıbdır. Metodik tövsiyələr verilir. Mən sahibkarlarla mütəmadi olaraq görüşürəm, onlara öz dəstəyimi verirəm. Bilirsiniz ki, yoxlamaların da sayı kəskin şəkildə aşağı düşüb. Yəni, biz şərait yaradırıq ki, sahibkarlar qurub-yaratsınlar, yeni iş yerləri, yeni sənaye sahələri yaratsınlar və Azərbaycanda istehsal, ixrac artsın, idxal azalsın».

2017-ci ilin ötən 7 ayında ticarət dövriyyəmizin müsbət saldosunun əhəmiyyətli dərəcədə artığını bildirən dövlət başçısı ixrac siyasətinin öz mühüm bəhrəsini verdiyini diqqətə çatdırıb: «Biz daha çox ixrac edirik, nəinki idxal. 7 ay ərzində valyuta ehtiyatlarımızı böyük dərəcədə artıra bilmişik. Baxmayaraq ki, neftin qiyməti bu gün də çox aşağı səviyyədədir, biz 7 ayda valyuta ehtiyatlarımızı 3 milyard 600 milyon dollar səviyyəsində artırmışıq. Mən deyəndə ki, ölkə qarşısında heç bir maliyyə çətinliyi yoxdur, bu rəqəmlər bunun bariz nümunəsidir. Bir sözlə, 2017-ci ildə də Azərbaycan uğurlu inkişaf dinamikasını saxlayır, onu möhkəmləndirir, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atır. Beləliklə, biz gələcək inkişaf üçün də gözəl şərait yaradırıq».

Kənd təsərrüfatının inkişafının dövlətin prioritetlərindən olduğunu qeyd edən dövlət başçısı bildirib ki, Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət tərəfindən verilən dəstək heç bir başqa ölkədə yoxdur. «İlk növbədə, əgər biz vergi siyasətinə nəzər salsaq görərik ki, ölkəmizdə fermerlər bütün vergilərdən azad olunublar, təkcə torpaq vergisindən başqa. Əlbəttə ki, bu, dövlət tərəfindən fermerlərə göstərilən böyük dəstəkdir. Dövlət xətti ilə ən müasir texnika alınır. Dünən təsərrüfatlarla tanış olarkən mən yeni texnikanı da gördüm. Bu texnikasız kənd təsərrüfatını inkişaf etdirmək, ümumiyyətlə, mümkün deyil. Bu il Azərbaycana 10 min ən müasir texnika gətirilib. Fermerlərə subsidiyalar verilir. Qeyd etdiyim kimi, güzəştli şərtlərlə kreditlər verilir. Yanacağın, gübrənin böyük hissəsi dövlət tərəfindən təmin edilir, metodik tövsiyələr verilir. Dövlət tərəfindən verilən tövsiyələr əsasında 40-a yaxın müasir aqropark yaradılır. Yəni sahibkarlara, fermerlərə dövlət tərəfindən bu qədər dəstək verilir və biz bunun nəticəsini də görürük. Sahibkarlar da, fermerlər də bu işlərə məsuliyyətlə yanaşırlar, götürülmüş kreditlər vaxtında qaytarılır. Növbəti illərdə bütün sahələr üzrə konkret işlər görüləcək».

Azərbaycan Prezidenti qeyd edib ki, ərzaq təhlükəsizliyi əlbəttə ki, bizim üçün əsas məsələlərdən biridir. «Son illər ərzində bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Bizim üçün ənənəvi olmayan sahələri inkişaf etdirmişik. Biz əvvəlki illərdə - sovet dövründə əti, südü, toyuq ətini Azərbaycana başqa respublikalardan gətirirdik. Bu gün bu sahələr üzrə çox böyük inkişaf var. Ət istehsalı təxminən 100 faiz səviyyəsində daxili imkanlar hesabına təmin edilir. Toyuq əti 100 faiz, hətta ixrac edirik. Süd isə 80 faiz daxildə istehsal olunur. Görüləcək tədbirlər nəticəsində biz 100 faiz səviyyəsinə çatacağıq».

Dövlət başçısı kənd təsərrüfatının ənənəvi sahələrinin inkişaf etdirilməsi üçün son dövrlərdə görülən işlərə diqqət çəkərək bildirib ki, artıq pambıqçılığın şöhrətini bərpa etmişik. İki il ərzində çox böyük işlər görülüb, pambıq sahələri 17 min hektardan 136 min hektara çatdırılıb, tütünçülük, fındıqçılıq, baramaçılıq sürətlə inkişaf edir. Çayçılıq və çəltikçilik sahələrinin inkişafı ilə bağlı önəmli addımlar atılır. Prezident İlham Əliyev onu da vurğulayıb ki, dövlət dəstəyi olmadan kənd təsərrüfatı uğurla inkişaf edə bilməz. «Çünki dövlət bütün lazımi tədbirləri görür, vəsait qoyur, infrastruktur yaradır, texnika ilə, gübrələrlə təmin edir, laboratoriyalar təşkil edilir. Bütün ölkə üzrə toxumçuluq, baytarlıq, aqrokimya laboratoriyaları təşkil olunub. Metodik tövsiyələr verilir. Eyni zamanda, bu yaxınlarda yaradılmış tədarük-təchizat qurumu da fermerlərə kömək göstərir, məhsulu onlardan alır. Ona görə bu üç ənənəvi sahəyə çox böyük diqqət göstərilir və göstəriləcək».

Müşavirədə çıxış edən Lənkəran şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşov, «Astaraçay» Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Tələt Məmmədov, Masallı rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov, «Cənub-Aqro» Məhdud Məsuliyyətli Cəmiyyətinin aqronomu Fərman Abdullayev, Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimov, «Gilan Orchards» Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Vaqif Süleymanov, Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev cənub bölgəsində kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı görülən işlər, ərzaq təhlükəsizliyinin təmin olunmasında bu regionun əhəmiyyəti barədə danışıblar.

# Asiya İnkişaf Bankı: «Neft iqtisadiyyatı öz yerini sabit və dayanıqlı qeyri-neft iqtisadiyyatına verir»

**Beynəlxalq maliyyə təşkilatlarının ekspertləri 2016-cı və 2017-ci illərdə ümumi daxili məhsulun (ÜDM) azalması ilə müşayiət olunan Azərbaycan iqtisadiyyatının 2018-ci ildə artım tempi ilə davam edəcəyinə dair proqnozlar səsləndirməkdədir.**

### Proqnozlar nə vəd edir?

Asiya İnkişaf Bankının (AİB) region ölkələrinin 2018-2020-ci illərdə iqtisadi vəziyyətinə dair proqnozlarına əsasən, Azərbaycanda son 2 ildə iqtisadi artımın aşağı düşməsinə baxmayaraq, neft iqtisadiyyatı tədricən öz yerini sabit və dayanıqlı qeyri-neft iqtisadiyyatına verməklə makroiqtisadi inkişafa zəmin yaradır. Bankın Azərbaycan üzrə direktoru Nəriman Mannapbekov bildirib ki, Azərbaycan hökumətinin iqtisadiyyatın şaxələndirilməsi və yeni islahatlar həyata keçirməklə neftdənkənar sahələrin inkişafını stimullaşdıran proqramlar hazırlaması nikbin ssenarilərdən xəbər verir.

### 2018-ci ildə ümumi daxili məhsulun artımı bərpa olunacaq

AİB nümayəndəsi qeyd edib ki, Azərbaycan iqtisadiyyatının perspektiv inkişafı üzrə qəbul olunmuş strateji yol xəritələrinə müəyyən olunmuş hədəflər qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün əlverişli zəmin yaradır. «Hökumət 2025-ci il və sonrakı dövr üçün uzunmüddətli inkişaf planını hazırlamaqla özünü neftdən sonrakı dövrə hazırlayıb. Bu, yaxşı ssenaridir və iqtisadiyyatın bütün sahələrini özündə birləşdirməklə uzunmüddətli sabit və davamlı inkişafa hesablanıb», - deyən Mannapbekov Asiya Bankının Azərbaycanın rəqabətə davamlı iqtisadi siyasət qurmaqla bağlı strateji baxışını dəstəklədiklərini vurğulayıb. Bankın Azərbaycan dövləti ilə birgə əməkdaşlıq çərçivəsində nəzərdə tutulan prioritetlərinə gəlincə, AİB ölkəmizdə iqtisadi sahədə struktur islahatlarının davam etdirilməsi, biznesin rəqabətliliyinin artırılması, yeni innovasiyalara əsaslanan idarəetmə sisteminin təmin olunması, biliklərə əsaslanan iqtisadiyyatın rolunun gücləndirilməsi, sosial sektorda əlavə tədbirlərin görülməsi və digər qlobal qabaqcıl təcrübənin həyata keçirilməsini dəstəkləmək niyyətindədir.

Dünya Bankı (DB) da çətin iqtisadi dövr yaşayan Azərbaycanın mürəkkəb iqtisadi proseslərdən uzaqlaşaraq stabil yola çıxdığını bəyan edib. Bankın Bakı ofisinin rəhbəri Navid Hassan Naqvi yerli KİV-lərə açıqlamasında bildirib ki, ÜDM-də neft sektorunun təsirinin hiss olunduğu Azərbaycan iqtisadiyyatı son 2 ildə 1-1,5% azalmaqla bəzi sahələrdə çətinliklər yarandı, mürəkkəb xarici iqtisadi mühit ölkənin makroiqtisadi və maliyyə sabitliyinə öz təsirini göstərdi, enerji resurslarının qiymətinin aşağı düşməsi və milli valyutanın devalvasiyası digər sektorlara öz təsirini göstərdi, investisiya layihələri təxirə salındı, maliyyə sektorunda problemlər yarandı, amma bu amil, dövlətin iqtisadi proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəyə təsirini minimuma endirmək məqsədilə iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili və strateji hədəflərinə uyğun olaraq sistem xarakterli bir sıra tədbirlərin həyata keçirilməsi ilə nəticələndi. Qeyri-neft potensialının səfərbər edilməsi, istehsalın dəstəklənməsi və təşviqi, qeyri-neft ixracının həvəsləndirilməsi ilə bağlı təsirli addımlar atılır. Bu öz mühüm təsirini göstərməkdədir, xüsusilə də aqrar sektordakı məhsul ixracatçılarının rolunun artması qlobal bazarlarda rəqabət qabiliyyəti daha yüksək olan məhsullarla tədiyyə balansında ixracın strukturunun möhkəmlənməsinə şərait yaradır. Bu iqtisadi kursun davam etməsi ölkədə çoxşaxəli biznes strukturunun formalaşmasına və əlavə dəyərin reallaşdırılmasına imkan verəcək. Dünya Bankı 2018-ci ildə Azərbaycan iqtisadiyyatının 0,5-1 faiz artacağını proqnozlaşdırır.

### İxracın artması manata kənar xarici təzyiqləri azaldacaq

DB-nin mütəxəssisləri müasir dövrün tələblərinə adekvat olaraq biznes, fiskal, maliyyə sektorlarında aparılan islahatların yaxşı perspektiv vəd etdiyini vurğulayır. Maliyyə Sabitliyi Şurasının yaradılması makroiqtisadi sabitliyin möhkəmləndirilməsi və maliyyə dayanıqlılığının təmin edilməsində, bu sahədə koordinasiya olunmuş siyasətin həyata keçirilməsində mühüm addımlardan biri kimi xüsusi əhəmiyyət kəsb edir. N.Naqvinin fikrincə, aparılan islahatlar vaxt tələb edir və onların səmərəliliyi bir neçə ildən sonra daha aydın hiss olunacaq.

«Standard & Poor`s» (S&P) beynəlxalq reytinq agentliyi 2017-ci ildə Azərbaycanda ÜDM-in həcminin 1% azalacağını, iqtisadi geriləmənin qarşıdakı ildə dayanacağını proqnozlaşdırıb. Agentliyin mütəxəssisləri bildirir ki, 2018-ci ildə Azərbaycan iqtisadiyyatı artımı bərpa edəcək və ÜDM-in 1, 2% artacağı gözlənilir. Qeyri-neft sektoruna yatırılan investisiyaların həcminin artması və biznes sektorunun bu sahədə daha inamla çalışması istehsalın yüksəlməsinə səbəb olacaq ki, bu da ümumi iqtisadi vəziyyət üçün qənaətbəxşdir. Həmçinin «Şahdəniz-2» qaz yatağından qaz nəqlinin başlanması da ümumi iqtisadi artıma təsirini göstərəcək və 2019-2020-ci illərdə Azərbaycanda illik ümumi daxili məhsul istehsalının artımının 3% səviyyəsində olacağı gözləniləndir. Agentlik 2017-2020-ci illərdə Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldonun əldə olunacağını və bu faktorun maliyyə sabitliyinə, manatın məzənnəsinə təsir edəcəyini proqnozlaşdırır. Qeyd edilib ki, tədiyyə balansında qorunan müsbət saldo manata kənar xarici təzyiqləri azaldacaq.

> «Hökumət 2025-ci il və sonrakı dövr üçün uzunmüddətli inkişaf planını hazırlamaqla özünü neftdən sonrakı dövrə hazırlayıb»

### Qeyri-neft iqtisadiyyatının şaxələndirilməsi əlavə dəyərin yaranmasına imkan verəcək

İqtisadçı ekspert Rəşad Həsənov bildirib ki, ölkənin iqtisadi strukturları, biznes sektoru aşağı neft gəlirləri fonunda müasir şəraitə uyğun fəaliyyət göstərməklə yeni iqtisadi tələblərə uyğunlaşmaqdadır. Ölkə iqtisadiyyatının son 3 ildə aşağı neft gəlirlərinə müəyyən qədər adaptasiya olunması həm biznes, həm hökumət, həm də vətəndaşların proseslərə uyğun hərəkət etməsi ilə müşayiət edilir: «Belə bir şəraitdə müəyyən qədər resessiya və durğunluq dövrünü yaşayan iqtisadi sektorların və iqtisadi subyektlərin fəaliyyətləri bu gün nisbətən tarazlıq dövrünə qədəm qoymaqdadır. Artıq yeni çıxış yolları, yanaşmalar sahibkarlıqda, eyni zamanda, az da olsa, administrativ idarəetmədə müşahidə olunur. Bu, öz növbəsində, neftdənkənar sahələrin inkişaf etdirilməsi sayəsində iqtisadi artımın formalaşdırılmasına öz təsirini göstərir. Hökumətin qeyri-neft iqtisadiyyatının şaxələndirilməsi və inkişafı ilə bağlı ortaya qoyduğu strategiyaların öhdəliklərini yerinə yetirməsi əlavə dəyərin yaradılmasına imkan verəcək. Bu da yekun olaraq iqtisadi artımı şərtləndirir.

### Sahibkarlar üçün vergi mühitinin cəlbediciliyi artırılıb

Maliyyə məsələləri üzrə mütəxəssis Röyal İmanlı da 2018-ci ildə nikbin iqtisadi göstəricilərin proqnozlaşdırıldığını bildirir. O, qeyd edib ki, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi və iqtisadi idarəetmənin təkmilləşdirilməsi, sahibkarlığa dövlət dəstəyi, lisenziyaların və icazələrin sayının kəskin şəkildə azaldılması, yerli istehsalı stimullaşdıran addımların atılması, şəffaflığın təmin edilməsi məqsədilə ödənişlərinin «ASAN xidmət» terminalları vasitəsilə həyata keçirilməsi və digər islahatlar mühüm əhəmiyyətə malikdir. Son 2 ildə qeyri-neft iqtisadiyyatının inkişafına hesablanmış əhatəli islahatların həyata keçirilməsi tədricən öz müsbət nəticələrini verir. Sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı üçün daha əlverişli şərait yaradılıb, vergi yükü azaldılıb, vergi ödəyicilərinin hüquqları genişləndirilib, nağdsız əməliyyatların həcminin və vergi mühitinin cəlbediciliyi artırılıb, iqtisadiyyata investisiya qoyuluşları təşviq edilib. Gömrük sistemində həyata keçirilən son islahatlar nəticəsində dövlət sərhədinin buraxılış məntəqələrinin buraxılış qabiliyyətini artırmaq və vətəndaşların rahatlığını təmin etmək üçün malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipi təkmilləşdirilib. Qeyri-neft ixracının artırılması, yeni bazarlara çıxışın təmin olunması ilə bağlı təsirli addımlar atılıb. Nəticədə neft gəlirlərindəki azalmalara baxmayaraq qeyri-neft ixracı və gəlirləri artıb: «Azərbaycanın tədiyyə balansında sabitlik formalaşıb. 2017-ci ilin birinci yarısında qeyri-neft sənayesində məhsul istehsalı 4,4%, kənd təsərrüfatı 2,2%, ixrac 36%, o cümlədən qeyri-neft ixracı 27% artıb, müsbət saldo 1,9 milyard dollar təşkil edib. Bu siyasətin mühüm nəticəsi olaraq idxal 20% azalıb. İdxalın azalması və ixracın artması iqtisadi sabitliyi möhkəmləndirib, maliyyə-valyuta sektorunda sabitliyin güclənməsi isə milli valyutamızın məzənnəsinin qeyri-müəyyənliyi ilə bağlı narahatlıqları aradan qaldırmaqdadır. Strateji valyuta ehtiyatları son yarım ildə 1 milyard dollar artıb və hazırda valyuta ehtiyatlarımız 40 milyard dollar təşkil edir. Bu, çox mühüm haldır və 2015-ci ildən sonra stratreji maliyyə rezervlərinin azalmasının dayandırılması deməkdir».

**Elbrus CƏFƏRLİ**

# Elektron ticarət: *problemlər və perspektivlər*

**Müasir dövrdə biznesin inkişaf edən sahələrindən biri də elektron və ya onlayn ticarətdir. Satış prosesinin məsafədən həyata keçirilməsi bizim ölkəmizdə də müşahidə olunur. Əyləncəli məhsullar (filmlər, videolar, oyunlar, musiqilər), informasiya xidmətləri (məlumat bazaları, onlayn qəzetlər), lisenziyalar, maliyyə və professional xidmətlər (iş və texniki məsləhət, mühasibat, memarlıq, dizayn, hüquqi məsləhət, səyahət xidmətləri və s.) elektron mühitdə aparılır.**

***Elektron ticarətin üstünlükləri***

Elektron Ticarət İcmasının rəhbəri Rəşad Camal Mehdiyevin fikrincə, vaxt itkisi və pula qənaət baxımından sərfəli elektron ticarət ənənəvi ticarət prinsiplərindən faydalansa da, ondan daha üstündür: «E-ticarət vasitəsilə istənilən malı xarici ölkələrdən sifariş edib buradakı satış dəyərindən çox ucuz qiymətə əldə etmək mümkündür.

Elektron ticarətin klassik ticarət formalarından fərqli bir sıra üstünlükləri vardır. Buna ilk olaraq gəlirin artımı və xərclərin azalması daxildir. 7 gün 24 saat işləmək, həmçinin internetdən istifadə etməklə interaktiv marketinq fəaliyyəti, istənilən yerə və yerdən alğı-satqı onlayn ticarəti önə çıxarır. Xüsusilə istehlakçılar üçün əsas amil hər hansı məhsulu əldə etmək üçün saatlarla tıxaclarda gözləmək və ya uyğun vaxt axtarmaq problemlərinin aradan qaldırılmasıdır. Elektron ticarət bazarı öz böyüklüyü ilə seçildiyindən alıcılar, xüsusilə də satıcılar üçün əlverişlidir. Məhsullarını daha geniş auditoriyaya təqdim etmək imkanı əldə edən satıcılar bununla daha çox gəlir əldə etmək şansı qazanırlar. Çünki onlayn ticarət satıcı və alıcı arasındakı məsafəni azaldaraq, ona daha yaxın olmaqla həm də rəqabəti stimullaşdırır».

R.Mehdiyevin sözlərinə görə, satıcılar üçün elektron ticarətin daha bir üstünlüyü xərclərlə bağlıdır: «Hardasa mağaza açan sahibkar onun üçün müəyyən qədər icarə haqqı ödəyir, eyni zamanda, əldə etdiyi gəlirdən işıq, qaz, su pulu və işçilərin əməkhaqqı üçün xərclər də ayırır. Beləliklə, çəkdiyi xərclərin müqabilində qazanc əldə etmək məqsədilə məhsulu baha qiymətə satmalı olur ki, bu da alıcıların azalması deməkdir. Elektron ticarətdə belə xərclərin əksəriyyəti yoxdur. Bunun üçün sadəcə «hostinq» xərclərinin ödənilməsi kifayətdir. Xərclərin az olması isə məhsulun daha ucuz satılması və daha çox alıcı deməkdir. Arada ikinci şəxslərin olmaması məhsulun qiymətinin daha ucuz başa gəlməsi baxımından sərfəlidir.

Elektron ticarətin dövlət üçün əsas üstünlüyü şəffaflığın təmin olunması, vergidən yayınma hallarının azaldılmasıdır. Ödəmənin elektron üsulla aparılması nəticəsində bütün hesablar qeydə alınır. Elektron ticarətdə verginin ödənilməsi, ödəniş vasitələrinin inkişaf etdirilməsi, gömrük prosedurlarının sadələşdirilməsi, uyğun hala salınması əhəmiyyətli, eyni zamanda, məcburi xarakter daşıyan amillərdəndir.

***Onlayn ticarət vergiyə necə cəlb olunur?***

Elektron ticarət aparan vergi ödəyicilərinə şəffaf nəzarətin təmin edilməsinə, rezident və qeyri-rezident elektron ticarət iştirakçıları arasında diskriminasiyanın aradan qaldırılmasına nail olmaq məqsədilə «Elektron ticarət haqqında» Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklər əsasən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsini, elektron ticarətin əsas iştirakçılarından olan kart təşkilatı, təcrübədə geniş tətbiq edilən pul kisəsi anlayışını, habelə elektron ticarətin iştirakçısı olan satıcıya dair tələbləri müəyyən edən normaları özündə əks etdirir.



Vergi Məcəlləsinin 168.1.5-ci maddəsinə edilmiş əlavəyə əsasən elektron ticarətin satıcıları (təchizatçıları) tərəfindən işlər və xidmətlər təqdim edildiyi, habelə elektron qaydada təşkil olunan lotereyalar, digər yarışlar və müsabiqələr keçirildiyi halda, işlərin və ya xidmətlərin alıcısının yerləşdiyi və ya qeydiyyatda olduğu, təsis edildiyi, işlər və ya xidmətlər alıcının daimi nümayəndəliyi ilə bilavasitə bağlı olduğu halda həmin daimi nümayəndəliyin olduğu yer ƏDV məqsədləri üçün işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer hesab edilir.

Vergi Məcəlləsinin 169.1-ci maddəsinə edilmiş əlavəyə əsasən ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində Vergi Məcəlləsinin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə (o cümlədən elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsi), ƏDV məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi bu maddəyə uyğun olaraq vergiyə cəlb olunur.

Vergilər Nazirliyinin Vergi xidməti və şəffaf vergi partnyorluğu departamenti məlumat verir ki, öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməyən digər iqtisadi fəaliyyət növü ilə məşğul olmaq hər kəsin hüququdur və hər kəs bu fəaliyyəti istər bilavasitə fərdi sahibkar kimi, istərsə də hüquqi şəxs təsis etməklə həyata keçirə bilər.

Bu fəaliyyət növü sahibkarlıq fəaliyyəti hesab edilir və fəaliyyətə başlamazdan əvvəl hüquqi şəxs yaratmadan fəaliyyət göstərmək istəyən fiziki şəxs vergi orqanında vergi uçotuna alınmalı, hüquqi şəxs təsis olunduqda isə həmin hüquqi şəxs dövlət qeydiyyatına alınmalıdır. Qeyd olunan hallarda təqdim edilməli olan sənədlər fərqlidir və həmin sənədlər barədə, habelə qeydiyyat üçün yerinə yetirməli olan prosedurlar barədə «Sahibkarın vergi bələdçisi» bölməsinin «Fiziki şəxslərin vergi uçotu» və «Hüquqi şəxslərin dövlət qeydiyyatı» hissələrindən müvafiq məlumatı əldə etmək mümkündür.

Vergi orqanına gəlmədən elektron qaydada da vergi uçotuna durmaq olar. Elektron qeydiyyat gücləndirilmiş elektron imza (o cümlədən «ASAN imza») əsasında İnternet Vergi İdarəsi portalı (www.e-taxes.gov.az) vasitəsilə aparılır.

Vergi öhdəlikləri isə vergi uçotuna alınarkən təqdim edilən ərizədə seçilmiş vergitutma sisteminə və yaranan vergitutma obyektlərinə uyğun olaraq müvafiq vergilərdən (sadələşdirilmiş vergi və ya gəlir (mənfəət) vergisi, ƏDV) ibarət olacaqdır.

***Azərbaycanda onlayn ticarət necə inkişaf edir?***

İqtisadçı ekspert Vüqar Bayramov onlayn ticarətin inkişafına maneə olan səbəblərdən ən başlıcası kimi bu ticarət növündə təhlükəsizlik mexanizmlərinin çox zəif inkişaf etdiyini göstərir: «Plastik kartın məlumatlarının üçüncü şəxs tərəfindən götürülə biləcəyi ilə bağlı insanlarda hələ də narahatlıq qalmaqdadır. Onlayn ticarətdə yaranan problemlər sənədləşmə, məlumatsızlıqla bağlı olur.

Bundan başqa, onlayn ticarətlə məşğul olanlar istəyirlər ki, tez bir zamanda qoyduqları vəsaitdən bir neçə dəfə çox gəlir əldə etsinlər. Çatdırılma şirkətləri ilə mağazalar arasında münasibətlər düzgün müəyyənləşdirilməyib. Bu da investorları onlayn ticarətdən çəkindirir. Digər tərəfdən, təhlükəsizlik məsələsində hər iki tərəflə bağlı problemlər var. Məsələn, alıcıların kompüterində qanunsuz proqramların olması, vətəndaşlar tərəfindən önləyici tədbirlərin görülməməsi problemlər yaradır».

V.Bayramovun rəyinə görə, onlayn ticarətdə təhlükəsizliyin təmin olunması üçün alıcılar bir neçə plastik kartdan istifadə edə bilərlər: «Bununla bağlı dövlət vətəndaşlar arasında maarifləndirici tədbirlər həyata keçirməlidir. Təhlükəsizlik qurumları tərəfindən kiber cinayətlərin aşkarlanması ilə bağlı işlər aparılmalı və mütəmadi olaraq məlumatlar verilməlidir. Bu, insanlarda onlayn ticarətə inam yarada bilər. Hər cür ləngimələrə baxmayaraq, son illərdə bu sahədə müəyyən irəliləyişlər müşahidə edilir».

V.Bayramov onlayn ticarətin əhəmiyyətini nəzərə alaraq, bu ticarət növünün inkişafının stimullaşdırılmasının vacibliyini xüsusi vurğuladı: «Plastik kartlardan, eləcə də nağdsız hesablaşmalardan istifadənin genişləndirilməsi ilə bağlı hansı addımların atılmasına gəlincə, bu zaman həm təşviqi, həm də inzibati metodlardan istifadə edilməsi məqbuldur. Təşviqi metodlardan biri ilə bağlı Türkiyə təcrübəsini misal çəkmək olar. Orada plastik kartlardan istifadə edən və plastik kartlarla ödəniş həyata keçirənlər üçün müəyyən bonuslar müəyyənləşdirilir. Plastik kartla ödəniş edən vətəndaşların ödənişlərinin bir qismi sonradan - ayın və ya ilin sonunda onun hesabına yatırılır. Məsələn, vətəndaş rüb ərzində plastik kartdan istifadə edərək min manatlıq alış-veriş edibsə, həmin min manatın 3 faizi, yəni 30 manatı sonradan vətəndaşın hesabına köçürülür. Bu isə vətəndaşlarda plastik kartlardan istifadə ilə bağlı stimul yaradır. 30 manatın vətəndaşa qayıtması dövlət üçün ciddi bir xərc olmayacaq. Bu, vətəndaşlarda kütləvi şəkildə nağdsız hesablaşmalardan istifadə etmək üçün müəyyən stimul yaradacaq».

**Fəxriyyə İKRAMQIZI**

# ACCA sertifikatlaşdırma imtahanları təşkil edilib

Vergilər Nazirliyinin Tədris Mərkəzi ilə «Imza Group» MMC arasında əməkdaşlıq çərçivəsində «100 uğurlu imza» birgə təlim layihəsi həyata keçirilib. Təşkilatlar arasında əldə edilmiş razılığa əsasən, əməkdaşlıq layihəsinin mühüm komponentlərindən biri Tədris Mərkəzində ACCA sertifikatlaşdırma imtahanlarının təşkili olub. Mərkəz ACCA sertifikatlaşdırma imtahanlarının təşkili üçün müvafiq lisenziyaya malikdir və ölkəmizdə peşəkar mühasiblər üçün beynəlxalq sertifikat almağa imkan verən bu imtahanları təşkil edir.

Sentyabrın 5-də keçirilən ilk ACCA sertifikat imtahanının ilkin mərhələsində 30 nəfər iştirak edib. İmtahanlar onlayn şəkildə və ingilis dilində aparılıb.

Qeyd edək ki, ACCA - mərkəzi ofisi Londonda yerləşən, 1904-cü ildən bəri fəaliyyət göstərən, müxtəlif dünya ölkələrindən 188000 üzvü olan nüfuzlu bir təşkilatdır. Həmin təşkilatın təşkil etdiyi imtahanlardan uğurla keçmiş şəxslərə verilən sertifikatlar dünya ölkələrinin əksəriyyətində tanınır.



# Regionlarda e-xidmətlər barədə məlumatlandırıcı sessiya keçirilib

Tədbir «Açıq hökumət»in təşviqi və elektron xidmətlərdən istifadənin artırılmasına dəstəyin təşkili» layihəsi çərçivəsində Tərtər və Ağcabədi rayonlarında təşkil edilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən «Trend»ə verilən məlumata görə, Regional İnsan Hüquqları və Media Mərkəzi İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə keçirdiyi tədbirdə təşkilatın sədri Xalid Kazımov bildirib ki, layihənin məqsədi Azərbaycanda Açıq Hökumət Tərəfdaşlığı (AHT) təşəbbüsünün tətbiqinə dəstək vermək, region sakinlərini elektron xidmətlər barədə məlumatlandırmaq və onlara elektron xidmətlərə müraciət zamanı yardım göstərməkdir.

**«Elektron hökumət» portalında 17 növ arayışın elektron qaydada verilməsi imkanı yaradılıb ki, buna da maraq böyükdür**

Daha sonra Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin eksperti Ruslan Mürsəlov iştirakçılara elektron xidmətlərin üstünlükləri və «Elektron hökumət» portalı ilə bağlı məlumat verib: «Elektron hökumət» - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən vətəndaşlara, sahibkarlara və dövlət qulluqçularına «vahid pəncərə» prinsipi əsasında elektron xidmətlərin göstərilməsinə şərait yaradan sistemdir. Hazırda «Elektron hökumət» portalında 454 elektron xidmət mövcuddur. İstifadəçilərə «Elektron hökumət» portalında qeydiyyatdan keçmək üçün mövcud olan 4 autentifikasiya (tanıma, identikləşdirmə) vasitəsi təqdim edilir. Bunlar «E-imza», «E-Gov» mobil identifikası vasitəsi, «Elektron hökumət» portalı tərəfindən vətəndaşa verilən kod-parol və «Asan imza»dır. «Elektron hökumət» portalı vasitəsilə əksər dövlət qurumları öz xidmətlərini təqdim edirlər. Portalda, həmçinin 17 növ arayışın elektron qaydada verilməsi imkanı yaradılıb ki, buna da maraq böyükdür».

# Əhalinin məşğulluğuna diqqət artırılır

Əhalinin sosial rifahının gücləndirilməsi, məşğulluğun artırılması, ümumilikdə ölkədə insan potensialının qorunması və inkişaf etdirilməsi istiqamətində tədbirlər davam etdirilir. Məşğulluğun təmin edilməsi, bir tərəfdən, insanların gəlirlərinin artması, digər tərəfdən isə dövlətin sosial yükünün azaldılmasında başlıca rol oynayır. Bu baxımdan, işaxtaran və işsiz vətəndaşların münasib işlərlə təmin olunması məqsədilə respublikanın rayon və şəhərlərində əmək yarmarkalarının təşkili mühüm əhəmiyyət kəsb edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən verilən məlumata görə, bu il Xidmətin xətti ilə respublikamızın 18 rayon və şəhərində əmək yarmarkaları keçirilib. Bu tədbirlər zamanı 470 müəssisə üzrə 4900-a yaxın vakant iş yeri işsiz və işaxtaran vətəndaşlara təklif edilib. 1165 nəfərə vakant iş yerlərinə göndərişlər verilib ki, onlardan böyük əksəriyyətinin həmin iş yerlərində məşğulluğu təmin olunub. Həmçinin yarmarkalarda 107 nəfər peşə hazırlığı və əlavə təhsil kurslarına, 103 nəfər ödənişli ictimai işlərə cəlb edilmək üçün qeydiyyata götürülüb.

Ümumilikdə cari ilin yanvar-iyul aylarında Dövlət Məşğulluq Xidməti tərəfindən 35.827 nəfər şəxsin peşə və ixtisaslarına, habelə əmək vərdişlərinə uyğun olaraq vakant iş yerlərində məşğulluğu təmin olunub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən işaxtaran və işsiz vətəndaşların münasib işlərlə təmin olunması üçün keçirilən əmək yarmarkaları cari ilin sentyabr ayında da davam etdiriləcək. Respublikamızın 22 rayon və şəhərində keçirilməsi nəzərdə tutulan bu tədbirlərin təşkili üçün Qusar, Sabirabad, Lerik, Tərtər, Biləsuvar, Astara, Bərdə, Ağcabədi, Şabran,




Zaqatala, Balakən, Salyan, Ağdam, Beyləqan, Ucar, Ağdaş, Tovuz, Yardımlı, Lənkəran, Goranboy, Abşeron, Naftalan rayonlarında işəgötürənlərlə əməkdaşlıq şəraitində müvafiq hazırlıq işləri aparılır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu aktiv məşğulluq tədbirlərində həmin rayon və şəhərlərdə fəaliyyət göstərən dövlət və qeyri-dövlət müəssisələrindəki boş (vakant) iş yerləri işsiz və işaxtaran vətəndaşlara təklif ediləcək. Yarmarkalarda sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota üzrə ayrılmış iş yerləri də təqdim olunacaq. İşəgötürənlərin nümayəndələrinin də iştirak edəcəyi əmək yarmarkalarında vakant iş yerlərinə göndərişlər verilməklə bərabər, əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığı və əlavə təhsil kurslarına, ödənişli ictimai işlərə cəlb olunmaq istəyənlərin qeydiyyatı aparılacaq.

Yeri gəlmişkən, 2017-ci il iyulun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 527,7 min nəfər olmuş, onlardan 881,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 646,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 21,7 faizi təhsil, 18,9 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 12,7 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,3 faizi tikinti, 7,1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 10,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2017-ci ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,9 faiz artaraq 522 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də tikinti sahələrində orta aylıq nominal əmək haqqı daha yüksək olmuşdur.

**Rəşad SADIQOV**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Emal məhsullarının satışı

***Kənd təsərrüfatı məhsullarından formalaşan emal məhsullarının satışı vergiyə cəlb olunurmu?***

Vergi Məcəlləsinin (VM) 13.2.60-cı maddəsinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı sənaye üsulu (o cümlədən xüsusi broyler təsərrüfatları, avtomatlaşdırılmış tövlə sistemləri və s.) da daxil olmaqla, heyvanların və quşların yetişdirilməsi, bəslənməsi, diri şəkildə olarkən onlardan məhsulların (ilkin formada, yarımfabrikat kimi istifadə olunaraq yeni məhsula çevrilmədən, kimyəvi tərkibi dəyişdirilmədən, konservləşdirilmədən) əldə edilməsi, bitkiçilik məhsullarının becərilməsidir.

Kənd təsərrüfatı məhsullarının satışı dedikdə istehsal olunan (o cümlədən sənaye üsulu ilə, xüsusi broyler təsərrüfatlarında, avtomatlaşdırılmış tövlə sistemlərində və digər yerlərdə) canlılar diri şəkildə, habelə onlardan diri şəkildə olarkən əldə edilmiş məhsullar ilkin formada, heç bir kimyəvi təsirə məruz qalmadan, bitkiçilik məhsulları və digər kənd təsərrüfatı məhsulları isə təbiətdə olduğu ilkin formasını saxlamalı, kimyəvi tərkibi dəyişdirilmədən və konservləşdirilmədən təqdim edilməsi nəzərdə tutulur (VM, maddə 13.2.61).

Vergi Məcəlləsinin müddəalarına əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələr mənfəət (gəlir) vergisindən, əlavə dəyər vergisindən, sadələşdirilmiş sistem üzrə vergidən və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərin əmlak vergisini ödəməkdən azad edilmişdir.

**Qeyd olunanlara əsasən:**

İstehsalçı istehsal etdiyi kənd tərəsərrüfatı məhsullarından emal məhsulu formalaşdırırsa (məsələn, yetişdirilmiş mal-qaranın kəsilərək ət şəklində satışı, becərilmiş meyvələrin qurudularaq satışı, habelə kənd təsərrüfatı məhsullarının istehsalçılarından diri şəkildə alınan heyvanların bir müddət bəsləndikdən sonra kəsilərək satılması və s.), həmin məhsullara görə ümumi qaydada seçdiyi vergitutma metodundan (mənfəət (gəlir) vergisi və ya sadələşdirilmiş vergi) asılı olaraq müvafiq vergiləri hesablayıb dövlət büdcəsinə ödəməlidir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

# Torpaq vergisi

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Departamentindən verilmiş şərhdə bildirilir ki, 2017-ci ildən təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqlarının vergi dərəcələri torpaqların təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti ballar əsasında torpaq sahəsinin hər bir hektarına görə hesablanır. Bir şərti balın qiyməti 6 qəpikdir.

Kənd təsərrüfatı fəaliyyəti üçün nəzərdə tutulan, lakin təyinatı üzrə istifadə olunmayan torpaqlar üzrə torpaq vergisinin dərəcəsi torpaq sahəsinin hər 100 kvadratmetrinə görə 2 manat müəyyən edilib.

Vergitutma məqsədləri üçün torpaqların kateqoriyası təyinatı üzrə istifadə olunan və təyinatı üzrə istifadə olunmayan kənd təsərrüfatı torpaqları, yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar, sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar üzrə müəyyən olunur.

Misal 1.

Kürdəmir rayonunun Muradxan kəndində fiziki şəxsin mülkiyyətində II keyfiyyət qrupuna aid olan 2,5 hektar kənd təsərrüfatı məqsədləri üçün nəzərdə tutulan əkin sahəsi vardır. Bu keyfiyyət qrupu üzrə torpağın 1 hektarı üçün şərti bal 75 müəyyən edilmişdir. Fiziki şəxs qeyd edilən torpaq sahəsinin 2 hektarını taxıl əkini üçün, qalan 0,5 hektarını isə təyinatına uyğun olmayaraq balıqçılıq təsərrüfatı üçün istifadə edir.

Bu halda fiziki şəxsin təyinatı üzrə istifadə edilən 2 hektar torpaq sahəsinə 9 manat (1 hektar əkin sahəsinin şərti balı 75 x 0,06 manat x 2 hektar), təyinatı üzrə istifadə edilməyən 0,5 hektar torpaq sahəsinə görə isə 100 manat (5000 kvadratmetr/100)*2manat) torpaq vergisi hesablanacaqdır.

Misal 2.

Yevlax rayonunda kənd təsərrüfatı məqsədləri üçün nəzərdə tutulan, lakin istifadə olunmayan 2 hektar torpaq sahəsinə görə torpaq vergisi aşağıdakı qaydada hesablanacaq: (20.000/100) *2=400manat.

***Qeyd:*** Müəssisələrin və kənd təsərrüfatı fəaliyyəti üçün nəzərdə tutulan, lakin təyinatı üzrə istifadə olunmayan torpaqlar üzrə fiziki şəxslərin torpaq vergisi dövlət büdcəsinə, digər hallarda fiziki şəxslərin torpaq vergisi yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

# Fiziki şəxslərin gəlir və hüquqi şəxslərin mənfəət vergisinin hesablanması

**2017-ci ildən bu vergi növləri ilə bağlı Vergi Məcəlləsinə bəzi əlavə və dəyişikliklər edilmiş, vergi ödəyicilərinə bəzi güzəşt və azadolmalar verilmişdir.**

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin Məlumatlandırma və təbliğat işinin təşkili şöbəsinin rəhbəri Bəxtiyar Abdurəhmanov mövzunu şərh edərək bildirmişdir ki, Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə edilən dəyişikliklə yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialında fiziki şəxsin əmanəti üzrə ödənilən illik faiz gəlirlərinin, habelə emitent tərəfindən buraxılan istiqraz və səhmlər üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirlərinin gəlir vergisindən azadolma müddəti 3 ildən 7 ilədək artırılmışdır.

Vergi Məcəlləsinin 106.1.5-ci maddəsinə edilən dəyişiklik isə «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» publik hüquqi şəxsin, dövlət adından yaradılan səhiyyə (tibb) müəssisələrinin gəlirlərinin mənfəət vergisindən azad olunmasını nəzərdə tutur.

B.Abdurəhmanovun sözlərinə görə, vergi ödəyicisinin vergi tutulan gəlirinin (mənfəətinin) müəyyən olunması istiqamətində Vergi Məcəlləsinə əlavə edilmiş 109.8-ci maddədə nağd hesablaşmaları rəsmiləşdirən nəzarət-kassa aparatının çeki və ya qəbzlər malların alınması ilə bağlı çəkilən xərcləri təsdiq edən sənəd hesab olunmamaqla gəlirdən çıxılmasına əsas vermədiyi vurğulanmışdır.

Eyni zamanda, Vergi Məcəlləsinin yeni 130-1-1-ci maddəsi iqtisadi fəaliyyət sahələri üzrə vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılmasının xüsusi qaydalarının olacağını qeyd edərək, bu qaydaların Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən olunmasını təsbit edir.

Vergi Məcəlləsinin yeni 13.2.16.14-1-ci, 125.1.9-cu və 128.3-cü maddələrinin müddəaları siyahısı hər il Azərbaycan Respublikansınnın Prezidenti tərəfindən müəyyən olunan güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə birbaşa və ya dolayısı ilə ödənişlər edən rezidentlərin və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəliklərinin bu ödənişlərdən ödəmə mənbəyində 10% dərəcə ilə vergini tutmalı olduqlarını göstərir.

***Misal:*** Rezident hüquqi şəxsin tapşırığı ilə onun Gürcüstandakı nümayəndəliyi güzəştli vergi tutulan ərazi kimi təsnifləşdirilən Kayman adalarında qeydiyyata alınmış şirkətə 10.000 manat ekvivalentdə ödəniş etdikdə, ödənilən vəsaitin 1.000 manatı vergi kimi ödəmə mənbəyində tutulmalıdır.

Vergi Məcəlləsinin 114.3.2-ci maddəsinə edilən dəyişiklik və yeni 114.3.2-1-ci və 114.10-cu maddələri yüksək texnologiyalar məhsulu kimi təsnifləşdirilən hesablama texnikasının (məsələn, kompüter, planşet və s.) əvvəl olduğu kimi 25% dərəcə ilə, digər maşın və avadanlıqların artıq 25% deyil, 20% dərəcə ilə amortizasiya olunmasını təsbit edir: «Digər tərəfdən nəzərdə tutulur ki, dövlət müəssisələri dövlət büdcəsinin investisiyaları hesabına aldıqları aktivlərin illik hesablanmış amortizasiya məbləğini tam həcmdə deyil, müvafiq dərəcələrlə hesablanan amortizasiyanın yalnız 40%-ni gəlirdən çıxa biləcəklər.

Vergi Məcəlləsinə əlavə edilmiş yeni 17.6-cı və 149.1.3-1-ci maddələri vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirinndən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlərin gəlirlənrinnin Azərbaycan Respublikasında vergi agenti vasitəsilə bəyannetmə prosedurunu tənzimləyir. Vergi agenti təyin olunan şəxs 30 gün ərzində Vergilər Nazirliyinin müəyyən etdiyi formada arayış təqdim etməlidir.

Rezident şəxslərin ödəmə mənbəyində vergiyə cəlb olunması istiqaməti üzrə Vergi Məcəlləsinin 102.1.13-cü maddəsinin ləğvi, 150.1.10-cu maddəsində edilmiş dəyişiklik və yeni əlavə edilmiş 150.1.11-ci maddə nəticəsində Maliyyə Bazarlarına Nəzarət Palatasında qeydiyyatdan keçmiş lotereyalardan və dövlət daxili uduşlu istiqrazlardan əldə olunan uduşlar vergiyə cəlb ediləcəkdir. Eyni zamanda, keçirilən lotereya, digər yarışlar və müsabiqədən pul şəklində əldə olunan uduşun (mükafatın) ödəmə mənbəyində 10% dərəcə ilə vergiyə cəlb olunması təsbit olunur. Vergi ödənməni edən şəxs rezident hüquqi şəxs və fərdi sahibkar olduqda həmin şəxs tərəfindən, ödəməni edən daimi nümayəndəliyi olmayan qeyri-rezident olduqda isə uduş (mükafat) əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərnbayncan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru olan «Azərpoçt» MMC tərəfindən tutulmalıdır. Ödəmə mənbənyinndə uduşları (mükafatları) ödəyən şəxs hesablanmış vergi məbnlənğini hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq bəyan etməli və büdcəyə köçürməlidir.

## Ödəmə mənbənyinndə uduşları (mükafatları) ödəyən şəxs hesablanmış vergi məbnlənğini hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq bəyan etməli və büdcəyə köçürməlidir

***Misal:*** Azərbaycan vətəndaşı uduşa qoyulan və sərf edilən pul vəsaiti çıxılmaqla «Azərlotereya» ASC tərəfindən keçirilən lotereyada 100 manat məbləğində uduş əldə etmişdir. 100 manatı ödənyən «Azərlotereya» ASC ödəmə mənbəyində 10 manat vergini özü tutmalıdır.

Vergi Məcəlləsinin yeni 150.1.9-cu maddəsinə edilən dəyişiklik torpaqların təqdim olunmasından gəlir əldə edən şəxsin əvvəlki kimi gəlir (mənfəət) vergisini deyil, satılan torpağın sahəsinə uyğun olaraq sadələşdirilmiş vergini ödəməli olduğunu bildirir.

Vergi Məcəlləsinin yeni 150.1.12-ci maddəsi öz növbəsində hesablaşma hesabında olan pul vəsaitlərini vergi ödəyicisi olan hüquqi şəxslərə və fərdi sahibkarlara nağd şəkildə verən yerli bank, xarici bankın respublikadakı filialı və ya milli operator olan «Azərpoçt» MMC tərəfindən ödənilən məbləğdən 1% dərəcəsi ilə sadələşdirilmiş vergini hesablamağı, vəsaiti alan şəxsin bank hesabından tutmağı və bəyan etməyi həvalə edir.

Dəyişikliklərin qeyri-rezidentlərin daimi nümayəndəlik yaratmadan Azərbaycan mənbəyindən əldə olunan gəlirlərinin vergiyə cəlb olunmasının tənzimlənməsi istiqamətində Vergi Məcəlləsinin 125.1.8-ci maddəsinə edilən dəyişiklik keçirilən lotereya, digər yarış və müsabiqələrdə iştirak edən qeyri-rezident gəlir əldə edərkən, ona ödəniləcək uduş (mükafat) məbləğindən iştirakla bağlı ödənilən pul vəsaitini (pul qoyuluşunu) çıxaraq yaranan fərqdən ödəmə mənbəyində 10% dərəcə ilə verginin tutulmasını bildiririr.

Misal üçün, respublikada keçirilən lotereyada iştirak üçün bir neçə lotereya biletinin alışına 10 manat sərf edən Türkiyə vətəndaşı 100 manat məbləğində uduş əldə etdikdə, ondan 9 manat məbləğində vergi tutulmalıdır ((100 manat-10 manat)*10%).

B.Abdurəhmanov qeyd etmişdir ki, Vergi Məcəlləsinin yeni 125.1-1-ci maddəsi qeyri-rezident şəxslərə məxsus elektron pul kisəsinə hər hansı məqsədlə pul köçürən Azərbaycan Respublikasının rezidentindən köçürməni yerinə yetirən yerli banka, xarici bankın Azərbaycan Respublikasındakı filialına və ya milli operator olan «Azərpoçt» MMC-yə ödəmə mənbəyində 10% dərəcə ilə vergini tutmağı həvalə edir.

***Misal:*** Respublika vətəndaşı WebMoney-də açdığı hesaba 100 manat köçürülməsi barədə banka müraciət etdikdə, ödəmə mənbəyində 10 manat vergi tutulmalı, yalnız 90 manat elektron pul kisəsindəki hesaba yönəldilməlidir.

***Bəs fiziki şəxs hüquqi şəxslə iş birliyinə girirsə, fiziki şəxsin hüquqi şəxsə ödəyəcəyi məbləğdən vergi necə tutulur?***

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentindən bu sualla bağlı bildirilmişdir ki, vergi ödəyiciləri ilə müxtəlif xidmətlərin yerinə yetirilməsi məqsədilə cəlb olunmuş fiziki şəxslər arasında əmək qanunvericiliyinə uyğun olaraq əmək müqaviləsi və ya mülki qanunvericiliyə uyğun olaraq mülki-hüquqi müqavilə bağlana bilər.

Vergi ödəyicisi tərəfindən işçilərlə əmək müqaviləsi bağlandıqda və ya mülki-hüquqi müqavilələr əsasında vergi orqanlarında uçotda olmayan fiziki şəxslər xidmətlərin yerinə yetirilməsinə cəlb olunduqda onlara edilən ödənişlərdən Vergi Məcəlləsinin 101.1-ci maddəsinə uyğun olaraq ödəmə mənbəyində gəlir vergisi hesablanıb bəyan edilməklə dövlət büdcəsinə ödənilməlidir.

# «Bir pəncərə» ixraca dəstək verir

Mərkəz sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verir.

İİTKM-in analitiki Nicat Hacızadə bildirmişdir ki, mərkəz ixracatçı sahibkarlara dəstək, sahibkarlığın inkişafına stimul vermək məqsədilə təsis edilib. Burada öz məhsulunun ixracını həyata keçirmək istəyən sahibkarlar üçün çox gözəl imkanlar yaradılıb. Sahibkarlar ixracat üçün İqtisadiyyat Nazirliyinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə, Mədəniyyət və Turizm Nazirliyinə, eləcə də Dini qurumlarla iş üzrə Dövlət Komitəsinə müraciət etmədən «bir pəncərə» vasitəsilə, bir xəttdən bütün lazımı sənədləri əldə edə, zəruri sertifikatları ala bilir.

Hazırda mərkəzə inteqrasiya olunan dövlət orqanlarının nümayəndələri xidmət mərkəzində fəaliyyət göstərərək informasiya resursları ilə real vaxt rejimində məlumat mübadiləsini təşkil edirlər.

Mərkəzin üstünlüyü bundan ibarətdir ki, hər hansı sahibkar ayrı-ayrı qurumlara ayaq döyüb vaxt itirmədən eyni zamanda iki qurumun nümayəndəsi ilə görüşərək qısa zaman içində istənilən sertifikatı əldə etmək imkanı qazanır. Müvafiq qurumlara, nazirliklərə onlayn qaydada sorğu göndərilir, istənilən məlumat əldə olunur. Sahibkara gördüyü işlə, ixracın vacib məqamları və prosesdaxili məsələlərlə bağlı informasiya verilir və sonda sertifikat təqdim edilir.

N.Hacızadənin sözlərinə görə, «Bir pəncərə» İxraca Dəstək Mərkəzinin gördüyü işlərin əhatə dairəsi geniş olduğu kimi, iş prosesi də sürətlə aparılır: «Mərkəzin uğuru bir də onunla əlaqədardır ki, sahibkarlar bura öz müştəriləri ilə birlikdə gəlirlər. Biz artıq bilirik ki, hansı ölkədə onların hansı məhsuluna ehtiyac var, müştəri ölkələrin koordinatlarını əldə etdikdən sonra onlarla daha rahat məlumat mübadiləsi apara bilirik. Deyə bilərik ki, bu gün Azərbaycanda sahibkarın ixrac problemi yoxdur, mal varsa, onu satmaq, ixrac etmək çox asan bir işdir.

## «Bir pəncərə» İxraca Dəstək Mərkəzinin gördüyü işlərin əhatə dairəsi geniş olduğu kimi, iş prosesi də sürətlə aparılır



Sahibkarlar mərkəzdən müxtəlif sahələrlə bağlı məsləhətlər alır, «Azexport» portalı üzərindən ixrac imkanlarını genişləndirir və Rəqəmsal Ticarət Qovşağının elektron xidmətlərindən yararlanırlar.

Mərkəz sahibkarların ixrac prosesinin sadələşdirilməsi istiqamətində islahatlara dəstək göstərir, sahibkarlara xarici ölkələrə ixrac üçün keçirilməli olan prosedurlar, korporativ idarəetmə, standartlaşma, biznes planın hazırlanması istiqamətində konsultasiyalar və təlimlər verir.

«Bir pəncərə» İxraca Dəstək Mərkəzinin xidmətindən istifadə edən sahibkar Vüsal Civişov mərkəzin fəaliyyəti ilə bağlı məmnunluğunu bildirir:

«Bir pəncərə» İxraca Dəstək Mərkəzi ixrac prosesini xeyli asanlaşdırmaqla sözün həqiqi mənasında bizə böyük dəstək olur. Sənədləri Mərkəz vasitəsilə alarkən xeyli vaxta qənaət edirik. Məsələn, mən İqtisadiyyat Nazirliyinin mərkəzdəki nümayəndəsinə müraciət edərək ixrac üçün malın mənşə ölkəsini təsdiq edən sertifikat və Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı üçün keyfiyyət sertifikatını əldə etmək istəyimi bildirdim. Lazımi sənədləri onlayn qaydada qısa zamanda rahatlıqla topladım. Bunun üçün mərkəzin bütün əmkdaşlarına minnətdarlığımı bildirirəm.

«Bir pəncərə»nin işgüzar imkanları genişləndirilməkdədir. dth.azexport.az ünvanından istifadə edərək mərkəzdə təqdim olunan bütün sertifikat və icazələri eyni zamanda «ASAN imza» (və ya e-imza) vasitəsilə elektron formada əldə etmək mümkün olacaq. Bu xidmət xüsusilə ucqar rayonlarda yerləşən sahibkarlarımıza faydalı olacaq.

**FƏXRİYYƏ**

# Kiçik sahibkarlar üçün bələdçi

**Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi sahibkarlıq və sənayenin inkişafında da geniş islahatlar aparılır. Rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilir, sahibkarlar tərəfindən yeni iş yerləri açılır, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyur.**

Ölkəmizdə biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması üçün innovasiya fəaliyyətin infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən texnoparkların, texnoloji mərkəzlərin, biznes inkubatorları şəbəkəsinin genişləndirilməsi bir vəzifə olaraq qarşıya qoyulmuşdur.

İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin rəhbəri Arif Nəcimov bildirmişdir ki, texnopark yeni bir anlayışdır və çoxunun bundan xəbərsiz olması başadüşüləndir: «Texnoparklar bir və ya bir neçə universitet, həmçinin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədar olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan şirkətlərin qurulmasına və inkişafına təşəbbüs göstərmək üçün qurulmuş kompleksdir. Texnoparkda fəaliyyət göstərən müəssisələrə, universitet innovativ elmi nəticələrinin transfer edilməsi və işin idarə olunması sahələrində dəstək verir.

Texnoparklar ilk dəfə XX əsrin 50-ci illərində ABŞ-da Stenford Universitetinin təşəbbüsü ilə yaradılmışdır. O vaxt universitetin yerləşdiyi Kaliforniya ştatında ABŞ hökumətinin sifarişi ilə hərbi sənaye məhsulları istehsal edən şirkətlər yüksək texnologiyalar sahəsində də müəyyən irəliləyişlər əldə etmişdilər.



Texnoparkların yaradılmasında əsas məqsəd biliklərin və ixtiraların texnologiyalara, həmin texnologiyaların isə kommersiya məhsuluna çevrilməsi, tədqiqatlara yönəldilmiş milli xərclərin səmərəliliyinin yüksəldilməsi, elmtutumlu kiçik sahibkarlıq sektoru vasitəsilə texnologiyaların sənayeyə ötürülməsindən ibarətdir. Elmtutumlu müəssisələrin formalaşması və onların bazarda təşəkkülü, elmtutumlu biznes sahəsində müəssisələrin dəstəklənməsi, sənayenin köklü şəkildə yenidən qurulması, regional qeyri-mütənasib inkişaf səviyyəsinin azalması, məşğulluq probleminin qismən həlli, yüksək texnologiyalar sahəsində elmi-texniki nailiyyətlərin sürətli tətbiqi də bu missiyaya daxildir.

Deyilənləri ümumiləşdirsək, deyə bilərik ki, texnoparklar kiçik və orta elmtutumlu innovasiya şirkətlərinin inkişafı üçün maksimum əlverişli mühitin formalaşdığı elm-istehsalat kompleksidir və əsasən elmi fəaliyyətin nəticələrinin məhsula çevrilməsinin və bazara çıxarılmasının təşkili ilə məşğul olur».

A.Nəcimovun sözlərinə görə, dünya iqtisadiyyatında texnoparklar innovasiyalı iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi hesab edilir: «Milli iqtisadiyyatın yeni sahələrinin formalaşmasında və rəqabətqabiliyyətli olmasında texnoparkların böyük rolu vardır. Məsələn, ABŞ, Hindistan, Çin və s. kimi ölkələr informasiya kommunikasiya texnologiyaları (İKT) sahəsində dünya səviyyəsində qabaqcıl olmalarına görə texnoparklara minnətdardırlar.

Dünya standartlarına əsasən, texnoparkların əsas hədəfləri universitetlərin təhsil, tədris və araşdırma fəaliyyətlərini dəstəkləyərək daha səmərəli nəticələr əldə etmək, sənayenin rəqabət gücünü artırmaq, yüksək texnologiyalara əsaslanan regional və iqtisadi inkişafı sürətləndirməkdir».

A.Nəcimov ölkəmizdə həm texnoparkların, həm də sahibkarların bizneslərini dəstəkləyən müxtəlif mərkəz və təşkilatların mövcudluğunu və gündən-günə artmaqda olduğunu böyük məmnunluqla dilə gətirdi: «Bugünkü gündə sənaye parklarında və məhəllələrində vəziyyət tamamilə fərqlidir, sahibkarlar üçün xeyli imkanlar və güzəştlər təklif olunur.

## Sənaye parklarında və məhəllələrində vəziyyət tamamilə fərqlidir, sahibkarlar üçün xeyli imkanlar və güzəştlər təklif olunur

Azərbaycanda qurulmuş və fəaliyyət göstərən sənaye parklarında sahibkarların 7 il müddətinə mənfəət vergisindən, əmlak və torpaq vergisindən, əlavə dəyər vergisindən azad edilməsi burada biznesin inkişafına güclü təkan vermək üçündür.

Sənaye parklarında verilən güzəştlərlə yanaşı, bəzi imkanları da qeyd etmək lazımdır. Parklarda sahibkarların fəaliyyəti üçün ödənişsiz yüksək sürətli internet, elektrik enerjisi, su və istilik daxil olmaqla bütün kommunal xidmətlər, yerli və qlobal ekspertlər tərəfindən biznes, liderlik, texniki və dil təlimlərini daxil edən təhsil proqramı, yerli və beynəlxalq biznes mentorları tərəfindən mentorluq (məsləhət) proqramı, avadanlıq idarəetməsi kimi imkanlar da verilir.

Bunlardan əlavə, sahibkarlara parkların ərazisində çox münasib qiymətə ofis (otaq) kirayə verilir. Yuxarıda qeyd olunanlar deməyə əsas verir ki, gələcəkdə ölkə iqtisadiyyatında sahibkarlığın inkişafı daha da sürətlənəcək və daxili bazarın ehtiyacları ödəniləcək, xarici bazara ixracın həcmi artacaq».

Öz biznesinə uyğun olaraq fəaliyyətlərini texnoparklarda və ya sənaye parklarında davam etdirmək istəyən sahibkarlar müəyyən müraciət üçün qaydalara əməl etməlidirlər.

Sahibkarın qeydiyyat proseduru operator və müraciət edən hüquqi və ya fiziki şəxs arasında niyyət razılaşmasının imzalanması ilə başlanılır.

Növbəti mərhələdə qeydiyyat üçün müraciət ərizəsi və ərizəyə əlavə olunan sənədlər təqdim edilir.

Hüquqi və fiziki şəxslərin sənaye parkının rezidenti kimi qeydiyyata alınması üçün ərizədə əhatə olunur:

- Ərizəçi haqqında məlumatlar;
- Sənaye parkında nəzərdə tutulan ərazinin göstəriciləri;
- İstehsalat tələbatı;
- Tullantıların ətraf mühitə təsiri;
- İnvestisiya layihəsi üzrə məlumatlar.

Sənaye Parkında fəaliyyət göstərmək istəyən şəxs ərizəyə bu sənədləri əlavə edir:

- Hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti (ərizəçi hüquqi şəxs olduqda);
- Hüquqi şəxsin səlahiyyətli nümayəndəsinin (təmsilçisinin) şəxsiyyətini təsdiq edən sənədin surəti (ərizəçi hüquqi şəxs olduqda);

Fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin və vergi uçotuna alınması haqqında şəhadətnamənin surəti (ərizəçi fiziki şəxs olduqda);

- Hüquqi şəxsin nizamnaməsinin surəti (ərizəçi hüquqi şəxs olduqda);
- İnvestisiya layihəsi (biznes planı);
- Hüquqi və fiziki şəxsin sənaye parkında məşğul olmaq istədiyi sahibkarlıq fəaliyyəti üçün xüsusi razılığın (lisenziyanın) və icazə xarakterli digər sənədlərin surətləri (əgər ərizədə göstərilibsə).

Hüquqi və fiziki şəxslərin sənaye parkının rezidenti kimi qeydiyyata alınması üçün müraciət formasını scip.az saytından əldə emtək mümkündür.

**Fəxriyyə İKRAMQIZI**

### BİR CÜMLƏ - BİR XƏBƏR

Fransanın turizm üzrə ixtisaslaşmış Routard.com və Tourmag.com portalları Azərbaycanda elektron vizanın üç saata verilməsindən bəhs edən məlumatlar yayıb.

Sentyabrın 11-dən 16-dək Çinin Çendu şəhərində keçiriləcək Dünya Turizm Təşkilatının Baş Assambleyasının 22-ci sessiyasının iştirakçılarının siyahısında Azərbaycan nümayəndə heyəti də var.

Azərbaycan sentyabrın 11-14-də Moskva şəhərində keçiriləcək «Worldfood Moscow» Beynəlxalq Ərzaq Sərgisinin eksklüziv partnyor ölkəsi seçilib.

Azərbaycan Banklar Assosiasiyasının nəzdində yaradılmış Bank Ombudsmanının rəsmi internet səhifəsi (www.bankombudsman.az) fəaliyyətə başlayıb.

Oktyabrın 1-4-də Macarıstanın paytaxtı Budapeşt şəhərinə təşkil olunacaq ixrac missiyasında Azərbaycan ixracatçıları da iştirak edəcək.

# İri fermer təsərrüfatlarına maraq artır

**Avropa İttifaqı TAİEX proqramı çərçivəsində Azərbaycanda iri fermer təsərrüfatlarının yaradılmasına dəstək göstərəcək.**

Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri İlham Bayramov bildirib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında aqrar sahədə əməkdaşlığın əsas prioritetlərindən biri iri fermer təsərrüfatlarının yaradılmasında fermerlərə kömək göstərilməsidir. TAİEX proqramının Vahid Kənd Təsərrüfatı Siyasətinə uyğun olaraq kiçik fermer təsərrüfatlarının birləşdirilməsi təcrübəsinin mənimsənilməsi, Avropanın qabaqcıl təcrübəsinin Azərbaycanda tətbiqi nəzərdə tutulur. Qurum postsovet ölkələrindən Litvada belə bir layihəni həyata keçirməklə yaxşı nəticə əldə edib. Litvada iri torpaq təsərrüfatlarının və zəmanət banklarının yaradılması, fəaliyyət mexanizmləri ilə bağlı təcrübə ölkəmizdə də geniş tətbiq oluna bilər.

İqtisadiyyat naziri Şahin Mustafayev KİV-ə açıqlamasında bildirib ki, əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədilə 20 rayon ərazisində 44 min hektar sahədə 32 iri fermer təsərrüfatı yaradılıb. Hazırda Ağcabədi, Ağsu, İmişli, Hacıqabul, Xaçmaz, Füzuli, Salyan, Saatlı, Biləsuvar, Şamaxı rayonlarında bu cür təsərrüfatlar səmərəli fəaliyyət göstərir. Dəyəri 193 milyon manat olan həmin fermer təsərrüfatlarına 70,5 milyon manat güzəştli kredit verilib. Təsərrüfatlarda məhsuldarlıq arpa və buğda üzrə hər hektardan 60, qarğıdalı üzrə 120, soya üzrə isə 35 sentner olub. Dövlət 2020-ci ilə qədər iri fermer təsərrüfatlarının yaradılması üçün 200 min hektar torpaq sahəsinin ayrılmasını nəzərdə tutur. Həmin dövrədək kənd təsərrüfatı məhsullarının həcminin iki dəfə artırılması və iqtisadi artımın böyük hissəsinin bu sektorun hesabına təmin olunması planlaşdırılır.

Kənd təsərrüfatı mütəxəssisi Firdovsi Fikrətzadənin sözlərinə görə, aqrar sektorda kollektiv istehsalın beynəlxalq təcrübədə özünü doğrultmuş əsas forması fermerlərin və kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarların bir araya gələrək müasir tipli təsərrüfat formalaşdırmasıdır: «Təcrübə göstərir ki, kiçik torpaq sahibliyinin və kiçik təsərrüfatların kənd təsərrüfatı istehsalında xüsusi çəkisinin böyük olması hazırda bu sahənin rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə mane olan başlıca problemlərdən biridir. Kiçik təsərrüfatların təşkilatlanma səviyyələrinin çox aşağı olması onların istər resurslara olan tələbatlarının ödənilməsində, istərsə də bazara çıxış məsələsində böyük çətinliklər yaradır. Bu baxımdan, kənd təsərrüfatı sahəsində kooperasiya fermer təsərrüfatlarının inkişafını təmin etmək üçün mühüm alətlərdən biridir. İri fermer təsərrüfatları ilə istehsal sahəsində aparıcı olan kənd təsərrüfatı müəssisələri arasındakı münasibətlər istehsalın səmərəliliyinin yüksəldilməsinə istiqamətləndirilmiş kooperasiya prinsipləri əsasında qurulur. Kiçik fermer təsərrüfatları və aqrar müəssisələr arasında əlaqələrin formalaşması və inkişaf etdirilməsi nəticəsində iri istehsal təsərrüfatı yaradılır və fermerlərin mülkiyyətində olan texnikalar birləşdirilir, onlarla vahid torpaq massivi becərilir. Öz təsərrüfatlarının davamlılığını yüksəltmək, kənd təsərrüfatı istehsalını genişləndirmək, əlavə gəlir qazanmaq məqsədilə fermerlər əsas fəaliyyətləri ilə paralel olaraq digər işləri də görürlər. Bundan başqa, iri fermer təsərrüfatları yüklərin daşınması, kənd təsərrüfatı texnikasının təmiri, məhsulların satın alınması və saxlanması, məhsulun maya dəyərinin azaldılması üçün qarışıq yemlərin və inşaat materiallarının istehsalı ilə də məşğul olurlar.

Mütəxəssisin sözlərinə görə, iki ildir ki, tətbiqinə başlanılan bu model artıq iqtisadi səmərəlilik baxımından özünü doğrultmaqdadır. Ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında və aqrar sahənin inkişafında iri fermer təsərrüfatlarının mühüm rolu vardır. Dövlət bu cür layihələrin bütün regionlarda yaradılması üçün Sahibkarlığa Kömək Milli Fondundan güzəştli kreditlərin ayrılmasını, digər mənbələr hesabına fermer təsərrüfatlarının sayının artırılmasını təmin etməkdədir: «Həmin layihələrin həyata keçirilməsi yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının inkişafı üçün münbit şərait yaradır, bu sahədə sahibkarlığı dəstəkləyir, qeyri-neft sektorunun davamlı inkişafını təmin edir. Belə təsərrüfatların yaradılması idxaldan asılılığın aradan qaldırılmasına, daxili bazarın keyfiyyətli məhsullarla təmin edilməsinə və ərzaq təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir. Bununla ölkədə ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı da stimullaşdırılacaq».

**ELBRUS**

# «Böyük Bakının Regional İnkişaf Planı»

**Bu layihə ilə əlaqədar son vəziyyət necədir? Layihədə şəhərin sosial-iqtisadi inkişafının əsas istiqamətləri öz əksini tapıbmı? Bakı Dövlət Layihə İnstitutunun direktoru İlqar İsbatovun AZƏRTAC-a müsahibəsində bu məsələlərə aydınlıq gətirilib.**

İlqar İsbatov deyib ki, «Böyük Bakının Regional İnkişaf Planı» Azərbaycan hökumətinin və Dünya Bankının birgə maliyyələşdirdiyi layihədir. Layihənin hazırlanmasına ABŞ, İspaniya, Türkiyə və İtaliyadan olan beynəlxalq məsləhətçilər qrupu da cəlb olunmuşdu.

Layihənin 1-ci mərhələsi olan «Böyük Bakının Regional İnkişaf Planı» 2013-cü ildə tamamlanaraq, 2014-cü ildə ictimaiyyətin müzakirəsinə verilib. «Böyük Bakının Regional İnkişaf Planı» M1:25000 miqyasında hazırlanan ərazi planlaşdırma sənədi kimi şəhərsalma və tikinti məcəlləsində qeyd olunan «Ümumi plan» deməkdir. Layihənin 2-ci mərhələsi olan Bakı şəhərinin Ərazidən İstifadə və Zonalaşdırma Planı isə ərazi planlaşdırma sənədi kimi məcəllədə qeyd olunan «Baş plan»a uyğundur. Hər iki sənəd artıq işlənib hazırlanıb.

Bakı şəhərinin Ərazidən İstifadə və Zonalaşdırma Planı 2016-cı ilin noyabr ayında tamamlanaraq sifarişçiyə təhvil verilib və həmin ilin dekabr ayında ictimai müzakirəsi keçirilib. Müvafiq rəsmi qurumların iradları, təklifləri, tövsiyələri nəzərə alınmaqla yekun sənəd hazırlanaraq sifarişçiyə, yəni Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilib.

***- Bakı Dövlət Layihə İnstitutu «Böyük Bakının Regional İnkişaf Planı»nda hansı təkliflərlə çıxış edib?***

- «Böyük Bakının Regional İnkişaf Planı» ərazinin inkişaf planı sənədidir. Bu inkişaf planında əsasən məskunlaşma ərazilərinin gələcək inkişaf istiqamətləri müəyyənləşdirilir. Daha sadə dildə desək, yaxın gələcəkdə insanların harada yaşayacağı və işləyəcəyi, eləcə də onların sosial tələbatlarının hansı şəkildə ödəniləcəyi planda öz həllini tapıb.

Bundan başqa, bu tələbatların ödənilməsi üçün ətraf mühit, ərazinin ekoloji, təhlükəsizlik məsələləri, həmçinin nəqliyyat və mühəndis infrastrukturuna aid tələblər kompleks şəkildə nəzərdən keçirilib.

Layihədəki konseptual yanaşmalara gəldikdə isə burada əsasən 2 paralel yanaşma aparılıb və çalışmışıq ki, bunları əlaqələndirək. Bunlardan birincisi şəhər yükünün azaldılması üçün desentralizasiya tədbirlərinin görülməsidir. Bu isə hökumətin regionda əsas inkişaf istiqamətinin müəyyənləşdirdiyi vektorlara uyğun həyata keçirilib. Bildiyimiz kimi, Sumqayıt şəhəri və Qaradağ rayonunda, xüsusən də Ələt istiqamətində dövlətin böyük strateji planları var. Biz bu istiqamətləri mütləq nəzərə almalı idik. Əsas inkişaf vektorları məhz bu istiqamətlərə yönəlib.

Bundan başqa, Bakı şəhərinin özündə müəyyən tarazlaşdırma tədbirləri nəzərdə tutulub. Layihədə mövcud mənzil fondunun əhali sayının artımı nəzərə alınmaqla iki dəfəyədək artırılması nəzərdə tutulur. Əhalinin məşğulluğunun təmin olunması üçün tələb olunan tədbirlər çərçivəsində mütəşəkkil sənaye zonalarının, kiçik və orta sənaye zonalarının, həmçinin kənd təsərrüfatında çalışanlar üçün istixana komplekslərinin və bu komplekslərin təminatı üçün tələb olunan müvafiq strukturların, o cümlədən logistik mərkəzlərin yaradılması planlaşdırılır.

Layihədə, həmçinin ətraf mühitin sağlamlaşdırılması təklifləri çərçivəsində kompleks yaşıllaşdırma tədbirləri nəzərdə tutulub. Nəticədə hesabat dövrünədək adambaşına 30 kvadratmetrdən artıq yaşıllıq sahəsi düşəcək. Bu istiqamətdə indiyədək görülmüş və uğurla davam etdirilən işləri, o cümlədən Milli Parkın Şıx çimərliyindən Zığ gölünədək uzadılmasını və Nərimanov prospekti ətrafındakı ərazilərin yaşıllaşdırılması işlərini xüsusilə qeyd etmək lazımdır. Planda, həmçinin mühəndis və nəqliyyat infrastrukturunun yenidən qurulması istiqamətində kompleks yanaşmalar və təkliflər irəli sürülüb

# Azərbaycan Respublikasının Vergilər Nazirliyi işə qəbulla bağlı MÜSABİQƏ ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100819300 nömrəli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqədə iştiraka yalnız aşağıdakı ixtisaslar üzrə ali təhsilə malik (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar buraxılırlar:

1. Hüquqşünaslıq;
2. Beynəlxalq hüquq;
3. Maliyyə;
4. İqtisadiyyat;
5. Statistika;
6. Beynəlxalq iqtisadi münasibətlər;
7. Mühasibat uçotu və audit;
8. Maliyyə və kredit;
9. İqtisadiyyatın tənzimlənməsi;
10. Əməyin iqtisadiyyatı və sosiologiyası;
11. İqtisadi kibernetika;
12. Qiymət və qiymətin əmələ gəlməsi;
13. Xəzinə əməliyyatlarının uçotu;
14. İqtisadi nəzəriyyə;
15. Vergilər və vergitutma;
16. Sığorta işinin təşkili;
17. Milli hesablar sistemi;
18. Qiymətləndirmə (sahələr üzrə);
19. Qiymətli kağızlar;
20. İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarəedilməsi (sahələr üzrə);
21. Aqrar istehsalatın iqtisadiyyatı və idarəedilməsi;
22. Ticarət və istehlak kooperasiyasının iqtisadiyyatı və idarəedilməsi;
23. Gömrük işinin təşkili;
24. İqtisadiyyatın hüquqi tənzimlənməsi;
25. Vergi işinin təşkili və idarə edilməsi;
26. Tətbiqi riyaziyyat;
27. İnformatika;
28. İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi;
29. Maliyyə nəzarəti və audit.

MBA proqamı üzrə yuxarıda qeyd olunan ixtisaslardan fərqli ixtisaslar üzrə təhsil almış namizədlərin ixtisaslarının uyğunluğuna Komissiya tərəfindən baxılaraq qərar verilir.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
- üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəsilə 30.08.2017-ci il saat 10:00-dan 13.09.2017-ci il saat 24:00-dək həyata keçirilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasına sağlamlıq haqqında tibbi arayışın, ali təhsil haqqında diplomun, məhkumluğun olması (olmaması) barədə arayışın və narkoloji dispanserdə qeydiyyatda olması (olmaması) barədə arayışın surətləri mütləq qaydada fayl şəklində əlavə olunmalıdır. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanına məlumat verilir. Namizədin ərizəsi qəbul edildikdən 5 gün ərzində baxılır, ərizə qəbul edilərsə namizədin iş nömrəsi və test imtahanının vaxtı və yeri barədə, ərizə qəbul edilmədiyi halda isə səbəbi barədə elektron poçt ünvanına məlumat verilir. Ərizə göndərilən müddətdən 5 gün ərzində elektron poçt ünvanına heç bir məlumat göndərilməyən vətəndaşlar elanda qeyd olunmuş telefon nömrəsi ilə əlaqə saxlamalıdırlar.

Namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda 012-403-81-35 nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Elektron ərizə vermiş namizədlər 18- 20.10.2017-ci il tarixdə (saat 10:00-dan 18:00-a dək) imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı mərhələsi 21.10.2017-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı 28.08.2017-ci il tarixdə Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdiriləcəkdir.

**Diqqət!** Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan namizədlərə üstünlük verilir. Namizəd ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.

## 2017-ci ilin sentyabr ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin avqust ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergi bəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin sentyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin sentyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**Vergilər sentyabr ayında ödənilir, bəyannamə** rüblük olaraq **oktyabrın 20-dən gec** olmayaraq təqdim edilir:

- Muzdlu işlə əlaqədar 2017-ci ilin avqust ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə **yanvar ayının 31-dən** gec olmayaraq, digər vergi ödəyiciləri isə 3-cü rüb üzrə bəyannaməni cari ilin **oktyabr ayının 20-dən** gec olmayaraq təqdim edirlər).
- Xüsusi notariusların 2017-ci ilin avqust ayı üzrə hesabladığı gəlir vergisi cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## Vergilər Nazirliyinin Tədris Mərkəzi vakant vəzifələr üzrə işə qəbul ELAN EDİR

**«Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin 1.7-ci bəndinə müvafiq olaraq (müsabiqənin test imtahanı mərhələsindən azad olunmaqla birbaşa müsahibə mərhələsinə qəbul edilərək) Vergilər Nazirliyinin Tədris Mərkəzinin vakant olan vəzifələri üzrə aşağıdakı tələblərə malik olan və həmin vəzifələrə işə qəbul olunmaq istəyən vətəndaşların işə qəbulla bağlı ərizələri elektron sənəd qəbulu dövründə Vergilər Nazirliyinin inzibati binasında (əlbəəl) qəbul edilir:**

**İqtisadiyyat və menecment kafedrasının müəllimi:**

*Namizədlərə tələblər:*

- İqtisadiyyat sahəsində ali təhsil (minimum magistr səviyyəsi);
- Elmi və pedaqoji sahədə minimum 2 il iş stajı;
- İqtisadiyyatın müxtəlif sahələri (mühasibat, bank, maliyyə, vergi və s.) üzrə yüksək səviyyədə nəzəri və praktiki biliklər;
- Təlimlərin aparılması texnologiyası və qaydaları üzrə zəruri biliklər;
- Yüksək səviyyədə nitq və ünsiyyət qurma bacarıqları;
- Müasir təlim metod və alətlərindən istifadə etmə bacarıqları;
- Auditoriyanı idarəetmə bacarığı;
- Təlimin xüsusiyyətindən asılı olaraq MS Windows, MS Office proqramları (xüsusilə Word və PowerPoint) üzrə zəruri biliklər.

**Elmi-tədqiqat bölməsinin elmi işçisi:**

*Namizədlərə tələblər:*

- İqtisadiyyat və ya hüquq sahəsində ali təhsil (minimum magistr səviyyəsi);
- Elmi-tədqiqat sahəsində minimum 2 il iş stajı;
- İqtisadiyyatın müxtəlif sahələri (mühasibat, bank, maliyyə, vergi və s.) üzrə yüksək səviyyədə nəzəri və praktiki biliklər;
- Elmi-tədqiqat işləri aparmaq və müvafiq işləri yerinə yetirmək bacarığı;
- MS Windows, MS Office proqramları (xüsusilə Word və PowerPoint) üzrə zəruri biliklər.

Müsabiqəyə yalnız Azərbaycan Respublikasının vətəndaşları buraxılırlar. Müsabiqə zamanı xarici dil biliklərinə və elmi dərəcəyə malik olan namizədlərə üstünlük veriləcəkdir.

Vergilər Nazirliyinin Tədris Mərkəzi Şamaxı rayonu, Nağaraxana kəndində yerləşir. Tədris Mərkəzinin Əsasnaməsi, vakant vəzifələrin mövcud olduğu kafedranın və bölmənin Əsasnamələri və həmin vəzifələrin təlimatları ilə Vergilər Nazirliyinin Tədris Mərkəzinin internet səhifəsinin (www.tedris.taxes.gov.az) «Normativ sənədlər» bölməsində tanış olmaq olar.

Müsabiqədə müvəffəqiyyət qazanmış, lakin vakant vəzifələr üzrə iş təklifindən imtina edən namizədlər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə

www.taxes.gov.az/www.taxes/faq/sual.html

və www.asxm.gov.az

internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Honkonq innovativ şirkətlərə vergi güzəştləri edir

Honkonq administrasiyasının rəhbəri Kerri Lam bildirmişdir ki, texnologiya sektorunda innovasiyaları təklif və tətbiq edən şirkətlər üçün vergi güzəştləri ediləcəkdir. Bu barədə məlumat texnologiya departamentinin başçısı Nikolas Yanq tərəfindən yayılmış və dövlət sərəncamı ilə təsdiq edilmişdir.

Layihə çərçivəsində Honkonq hakimiyyətinin təsis edəcəyi yeni innovasiyalar və texnologiyalar fondu bu ilin sentyabr ayından fəaliyyətə başlayacaq. N.Yanq demişdir: «İndi biz bir sıra hüquqi detalları dəqiqləşdiririk, çünki fondun təsis edilməsi üçün həm investorlar, həm də investisiyaları almağa əsas namizədlər ilə çoxlu sayda sənədlərin imzalanması tələb olunur».

## Fransada vergi islahatının anonsu verildi



Maliyyə naziri Bruno Le Meyr açıqlama verərək hökumətin bir sıra vergi məsələlərinin həlli ilə bağlı qanunvericilik tədbirləri görməyi planlaşdırdığını təsdiq etmişdir. Bu tədbirlər qarşıdan gələn 2018-ci büdcə ilində vergi sahəsi üzrə rəqabətliliyin artırılmasına yönəldiləcək. Hələ may ayının sonunda Fransanın ən böyük işəgötürən qurumu olan MEDEF təmsilçiləri qarşısında çıxış edərkən Le Meyr hökumətin bir sıra əsaslı təkliflərlə çıxış edəcəyi barədə məlumat vermişdi. Dəyişiklik ediləcəyi gözlənilən sahələr korporativ verginin dərəcəsinin azaldılması, İSF əmlak vergisinin ləğv edilməsi, rəqabətqabiliyyətlilik və məşğulluq vergisinin (CICE) məcburi yığımların azaldılması və kapitalın artımı vergisinin sadələşdirilməsi ilə əvəz olunmasıdır.

Nəzərdə tutulan plana əsasən, korporativ vergi 2018-ci ildə 500 min avroya qədər gəlirin 28 faizinə qədər azaldılacaq, bununla yanaşı, hazırda 33,33 faiz təşkil edən əsas göstərici 2019-cu ilədək 500 mindən artıq gəlirin 31 faizinə endirilmişdir.

Bundan sonra isə 2020-ci ildən başlayaraq korporativ gəlirlər 28 faizlik vahid dərəcə ilə vergiyə cəlb ediləcək, korporativ vergi isə 2021-ci ildə 26,5 faizə, 2022-ci ildə isə 25 faizə endiriləcək.

Le Meyerin açıqlamasına görə, kapitalın artımından tutulan vergi 2018-ci ildən 30 faizlik dərəcə ilə vahid vergiyə cəlb ediləcək.

## Çin ƏDV islahatını davam etdirəcək

Ölkə hökuməti vergilərin azaldılması ilə iqtisadiyyatın artımına nail olmaq məqsədilə əlavə dəyər vergisi ilə bağlı islahatın davam etdirilməsini qərara almışdır. Hökumətin açıqlamasına görə, əlavə dəyər vergisinin tətbiqi ilə bağlı islahat artıq öz müsbət nəticəsini göstərməyə başlamışdır. Bu islahat çərçivəsində kiçik biznes üçün digər vergi hesablamalarının azaldılması sahibkarlara 1,6 trilyon yuandan (244 milyard dollar) artıq vəsaitə qənaət etmək imkanı yaratmışdır. ƏDV-nin tətbiqinin genişləndirilməyə başlandığı 2016-cı ilin may ayından 2017-ci ilin iyun ayına qədər digər vergilərin məbləğində 850 milyard yuan (128,69 milyard dollar) azalma olmuşdur.

Əlavə dəyər vergisi üzrə islahat Çin hökumətinə ikiqat vergitutmanı aradan qaldırmağa imkan vermişdir. İslahat innovasiyaların inkişafına və sənaye istehsalının modernləşməsinə kömək edir, eləcə də əhalinin məşğulluq səviyyəsini qaldırır.

Bundan əlavə, ƏDV sahəsində islahatların davam etdirilməsi bütövlükdə vergitutma sistemini optimallaşdıracaq və ədalətli vergi dərəcələrinin müəyyənləşdirilməsinə şərait yaradacaq.

## Avstraliyada xaricdən alınmış kitablar üçün vergi tutulacaq

2018-ci ilin ikinci yarısından başlayaraq Avstraliya hökuməti xarici onlayn platformalardan satın alınmış bütün kitablar üçün 10 faizlik vergi tətbiq edəcək. Bu məsələ müxtəlif kitab satışı şəbəkələri və ölkənin Kitabsatanlar Assosiasiyası ilə ciddi şəkildə müzakirə edilmişdir.

Kitabların pərakəndə satışı ilə məşğul olanların mövqeyinə görə, xarici şirkətlər xaricdən gətirilən malların dəyərinin 1000 dollardan aşağı olduğu halda vergidən azad edilməsi ilə bağlı ölkə qanunvericiliyindəki boşluqdan istifadə edirlər. Bu onlara kitablar da daxil olmaqla bir sıra malları ölkəyə vergisiz gətirməyə imkan verir.

Qanuna dəyişiklik ediləndən sonra kitablar və digər «ucuz mallar» ölkəyə gətirilərkən 10 faizlik vergi ödəniləcək. Bu yenilik əsasən «Amazon», «Ebay» və «Alibaba» kimi onlayn mağazaların fəaliyyətinə aid olacaq.

## Britaniya ekspertləri gənc sahibkarlara güzəşt verilməsini tövsiyə edirlər

Böyük Britaniyanın məşhur Adam Smit institutu hökumətə 30 yaş altında olan vergi ödəyiciləri üçün hava səfərlərinə qoyulan vergini ləğv etməyi, eləcə də sığorta ödənişlərini azaltmağı məsləhət görmüşlər. İnstitutun prezidenti Medsen Piri belə hesab edir ki, mühafizəkarlar seçiciləri öz tərəfinə çəkməyin, məsələn, səfər xərclərinin azaldılması və ya xaricdə işləmək imkanlarının asanlaşdırılması kimi yeni metodlarını axtarmalıdırlar. Hazırda Avropa İttifaqı ölkələri ilə müqayisədə aviasiya səfərləri üçün tətbiq edilən vergi Böyük Britaniyada daha yüksəkdir. Verginin məbləği ikitərəfli səfər bileti üçün orta hesabla 150 funt sterinq (330 manat) təşkil edir. İnstitut ekspertləri belə hesab edirlər ki, aviasiya yanacağından daha səmərəli istifadə edildiyinə baxmayaraq, verginin məbləği aşağı salınmamışdır.

Sosial sığorta fondlarına ödənişə gəldikdə isə araşdırmalar göstərir ki, bunun hesabına ildə 21.300 funt sterlinq (47 min manat) gəliri olan gənc sahibkar üçün illik vergi yükü 530 funt sterlinq (1165 manat) aşağı salına bilər.

Xatırladaq ki, iyun ayında Mühafizəkarlar Partiyası Şimali İrlandiyada yerli hakimiyyət orqanlarının müsbət rəyini alandan sonra aviasəfərlər üçün verginin azaldılması məsələsinə baxılması barədə razılığa gəlmişdi.

## Kolumbiya vergi amnistiyasına hazırlaşır

Hökumət 2015-2017-ci illər arasında bəyan edilməmiş aktivləri və gəlirləri olan vergi ödəyiciləri üçün vergi amnistiyası elan edəcək.

Bu sxemə müvafiq olaraq 2017-ci il dekabrın 31-dək vətəndaşlar müvafiq dövlət orqanlarına əmlak, investisiyalar, avadanlıqlar, nəqliyyat, əmlak üzərində hüquq, eləcə də nağd pul və bank hesabları da daxil olmaqla öz aktivləri haqqında məlumat verməlidirlər. Vergi amnistiyası üçün müəyyənləşdirilmiş qaydalara əsasən, ödəyicilər bəyan edilməmiş aktivlərin dəyərinin 13 faizi nisbətində vergi ödəməlidirlər.

Kolumbiyanın fiskal orqanları vergi amnistiyasının vergi məlumatlarının avtomatik mübadiləsinin başlanması ərəfəsində tətbiq edilməsi barədə xəbərdarlıq etmişdir. Buna görə də vergi ödəyiciləri ciddi sanksiyalar və məhkəmə araşdırmaları ilə üzləşmək istəmirlərsə, bu imkandan istifadə etməlidirlər.

## Almaniya aviasəfərlər üçün vergini ləğv etməyə hazırlaşır

Almaniyanın iqtisad naziri xanım Bricitt Zipris bildirmişdir ki, Almaniyada hava səfərləri üçün verginin tətbiq edilməsi ölkənin aviasiya sektoruna ziyan vurduğuna görə ləğv edilməlidir. Nazirin «Handelsblatt» televiziya şirkətinə verdiyi müsahibə bu yaxınlarda iflasa uğradığını elan etmiş «Air Berlin» regional aviasiya şirkəti barədə xəbərdən sonra yayımlanmışdır.

«Aviaşirkətlər və həmkarlar təşkilatları bu verginin alman şirkətlərinin vəziyyətinə mənfi təsiri barədə çoxdan tənqidi münasibət bildirirlər. Onun ləğv edilməsi Almaniya şirkətlərinin Avropada rəqabət qabiliyyətini artıracaq», - xanım Zipris bildirmişdir.

Almaniyada aviasəfərlər üçün vergi 2011-ci ildə atmosferə karbon qazı atqılarının miqdarını azaltmaq məqsədilə tətbiq olunmağa başlamışdı. Bu vergi həm daxili, həm də beynəlxalq reyslər üzrə uçan sərnişinlərdən tutulur. Verginin məbləği məsafədən asılı olaraq 7,5; 23,43 və 42,18 avro təşkil edir və ondan hər il büdcəyə 1 milyard avro vəsait daxil olur.

Bu verginin məbləği əvvəlcə 2 500 kilometrədək məsafə üçün 8 avro, 6 000 kilometrədək uçuşlar üçün 45 avro və uzaq məsafələrə uçuşlar üçün 45 avro müəyyənləşdirilmişdi, lakin 2012-ci ildən dərəcələr aşağı salınmışdır.

Hava Nəqliyyatı üzrə Beynəlxalq Assosiasiya (İATA) da hökuməti ölkənin aviasiya sənayesinin rəqabət imkanlarının artırılması üçün aviabletlərin qiymətinə əlavə edilən bu verginin ləğv edilməsinə çağırmışdır. Keçən il hava daşımaları üzrə Berlində keçirilmiş Ümumdünya Simpoziumunda İATA-nın ozamankı baş direktoru Toni Tayler bildirmişdi ki, aviasiya sektoru milyondan artıq insanın iş yeridir və Almaniya iqtisadiyyatına hər il 77 milyard avro vəsait gətirir. Bununla belə, sektor «izafi vergilərin» və daşıma imkanlarının məhdudluğunun təzyiqi altında fəaliyyət göstərir.

## Portuqaliyada gəlir vergisi ilə bağlı dəyişiklik gözlənilir

Hökumət gələn büdcə ilində fiziki şəxslərdən gəlir vergisi tutmaq üçün qüvvədə olan həddi qaldırmağı planlaşdırır. Ölkənin populyar nəşrlərindən olan «Jornal de Negocios» qəzeti vergi administrasiyasının nümayəndəsinin açıqlamasını yaymışdır. Açıqlamaya əsasən, gəlir vergisi tutmaq üçün hazırda qüvvədə olan illik 8500 avro həddi, çox ehtimal ki, 9000 avroya qaldırılacaq.

Hökumətin qarşıdan gələn 2018-ci büdcə ilində gəlir vergisinin dərəcəsini və müəyyənləşdirilmiş hədd göstəricilərini daha geniş planda dəyişdirəcəyi gözlənilir. Bu addımın atılması həm siyasi, həm də iqtisadi məqsəd daşıyır. Burada hökumətin əsas niyyəti nisbətən kiçik partiyalardan büdcə layihəsinə dəstək almaq, eləcə də orta səviyyəni təmsil edən vergi ödəyicilərinin vergi yükünü yüngülləşdirməkdir.



krossvord

**Yuxarıdan aşağı:** 1.Masallı rayonunda kənd; 2.Ət məhsulu; 3.Qabonda şəhər; 4.Teatr, sirk artistləri dəstəsi; 5.Saçı formaya salmaq üçün dişli alət; 6.Bozalaq cinsinə aid bitki növü; 9.Ölkəmizdə futbola nəzarət edən rəsmi qurum; 13.Kimyəvi element. Rəngsiz qaz; 15.Dövlətin və ya dövlət daxilində muxtar ərazinin inzibatı mərkəzi olan şəhər. Həmçinin salat adı. «Olivye» adı ilə də tanınır; 16.Gerçək görüntünün rəqəmli surətini yaratmaq üçün ofis texnikası; 17.Az miqdarda məişət çirkab sularını təmizləmək üçün qurğu; 18.Afrikanın şimalında yerləşən və Böyük səhra adlandırılan ərazi; 20.Azərbaycan Premyer Liqasında mübarizə aparan futbol klubu; 21.«Görüş» bədii filmində (1955) baş qəhrəman - Lala obrazını canlandıran Özbəkistan aktrisasının adı.

**Soldan sağa:** 1.Azərbaycanda qadınlardan ibarət voleybol klubu; 5.Azərbaycan nağıllarının personajlarından biri, yarıheyvan, yarıinsan səciyyələr daşıyan nəhəng əfsanəvi varlıq; 7.Nigeriya kino sənayesinin mərkəzi; 8.Respublikamızda çay. Bədii ədəbiyyatda daha çox ayrılığın rəmzi kimi xatırlanır; 10.Türkiyədə şəhər; 11.Qədim yunan filosofu və riyaziyyatçısı, dini-fəlsəfi məktəbin banisi; 12.Həftənin günü; 14.Avtomobil markası; 19.Yapon mənşəli əyləncə anlayışıdır. Fonoqram əsasında qeyri-peşəkar mahnı ifa etməsinə verilən ad; 21.Hindistanda şəhər; 22.Rusiyada çay; 23.Teatr termini. Buffonada tərzində qısa fars tamaşaları; 24.Tailandda ada; 25.Qvatemalada departament və şəhər.



*Lala və Kamil. «Görüş» bədii filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Ananda; 2.Nitinol; 3.Kaqoy; 4.İrakli; 5.Plaun; 6.Şaolin; 9.İvye; 13.Nalu; 15.Ondatra; 16.Ahşeri; 17.Aypara; 18.Krater; 20.Milan; 21.Qunpo. **Soldan sağa:** 1.Anneksiya; 5.Piş; 7.Avtoqraf; 8.Şamo; 10.Dunay; 11.Ləvəngi; 12.Şlanq; 14.Neron; 19.Himalay; 21.Qədir (Rüstəmov); 22.Esla; 23.Maqnetit; 24.İon (dənizi); 25.Apatozavr.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Azərbaycan birinciliyi başa çatdı



Azərbaycan Velosiped İdmanı Federasiyasının 2017-ci il üçün müəyyənləşdirdiyi təqvim planına əsasən, Veloparkda və Bakı Olimpiya Stadionu ətrafındakı yollarda çoxgünlük ötüşmələr üzrə Açıq Azərbaycan çempionatı keçirilib. 3 gün davam edən yarışda Gürcüstan və Rusiya Federasiyası velosipedçiləri də iştirak edib. Üç mərhələnin yekununa əsasən, gənclər kateqoriyasında yığma komandamızın üzvü Kərim Şirəliyev 1-ci mərhələni 1-ci, 2-ci və 3-cü mərhələləri isə 2-ci sırada tamamlayarq 1-ci yerə layıq görülüb. Yığmamızın digər üzvü - yarışın ilk günü finiş xəttini 2-ci, sonrakı günlərdə isə 1-ci keçən İvan Orlov ümumi təsnifatda Kərimdən 24 saniyə geri qalaraq 2-ci yeri tutub. Üçüncü yeri isə Rusiya Federasiyasından gəlmiş Telman Vəliyev tutub.

2001-2002-ci il təvəllüdlü yeniyetmələr arasında qalib adını Qadir Mustafayev qazanıb - o ilk mərhələdə 7-ci, 2-cidə 3-cü olsa da, sonuncu yarış günündə geriliyi aradan qaldırmağa müvəffəq olub və fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Nəcəf Bağırov ilk 2 mərhələdə 1-ci nəticə göstərmiş, yarışın sonuncu günündə isə liderliyi Qadirə təhvil verərək ümumi təsnifatda 2-ci yeri tutub. Gürcüstan yığma komandasının üzvü Avtandi Piranaşvili isə Açıq Azərbaycan birinciliyinin bürünc medalına layiq görülüb. Fərqlənən idmançılar medal, diplom və xatirə hədiyyələri ilə təltif ediliblər.

# Ramil Quliyev Avropada ayın atleti seçilib

Türkiyəni təmsil edən azərbaycanlı atlet Ramil Quliyev Avropa Atletizm Birliyinin hər ay sosial şəbəkələrdə səsvermə yolu ilə seçdiyi «Avropada ayın atleti» mükafatına layiq görülüb.

Həmyerlimiz ötən ay Londonda keçirilmiş Dünya Atletizm Çempionatında və Birminqemdəki Almaz Liqasında kişilər arasında 200 metr məsafəyə qaçış yarışlarında qızıl medal qazanıb. Bundan əlavə, R.Quliyev Berlindəki İSTAF Oyunlarında isə 100 metr məsafəni ikinci başa vuraraq gümüş medala sahib olub.




# Üçqat dünya çempionları Prezident təqaüdü alacaqlar

**Prezident İlham Əliyev Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə üçqat dünya çempionları Hacı Azər oğlu Əliyevə və Məhəmmədrəsul Yusupoviç Məcidova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilməsi haqqında sərəncam imzalamışdır.**

Sərəncamda qeyd olunmuşdur ki, Fransanın paytaxtı Paris şəhərində keçirilmiş güləş üzrə dünya çempionatında Hacı Azər oğlu Əliyev və Almaniyanın Hamburq şəhərində keçirilmiş boks üzrə dünya çempionatında Məhəmmədrəsul Yusupoviç Məcidov yüksək nəticələr əldə edərək üçqat dünya çempionu adını qazanmış və Azərbaycan idmanının şöhrətini daha da artırmışlar.

# Yeniyetmə güləşçisilərimiz dünya çempionatında uğurula yarışırlar

Yunanıstanın paytaxtı Afinada yeniyetmə güləşçilərin dünya çempionatı davam edir. 50 kiloqram çəkidə yarışan yunan-Roma güləşçimiz Zaur Əliyev ardıcıl olaraq Macarıstan və İsveç təmsilçilərini məğlub edib. Yarımfinalda Ermənistan idmançısına da heç bir şans verməyən güləşçimiz finala yüksəlib.



Sentyabrın 5-də keçirilən həlledici görüşdə güləşçimizin rəqibi Yaponiya idmançısı olub. Rəqibinə məğlub olan güləşçimiz dünya çempionatının gümüş medalı ilə kifayətlənib.

Qeyd edək ki, Zaur Əliyev bir ay bundan əvvəl 46 kiloqram çəkidə yeniyetmələrin Avropa çempionu adını qazanmışdı.

Daha iki güləşçimiz də finala çıxıb və onlar qızıl medal uğrunda mübarizə aparacaqlar.

Qurban Qurbanov İtaliya və Namibiyadan olan rəqiblərini mübarizədən kənarlaşdırdıqdan sonra yarımfinalda Rusiya idmançısına da qalib gəlib və çempionatın finalına vəsiqə qazanıb. Həlledici görüşdə onun rəqibi Ukrayna idmançısı olacaq. Nihad Məmmədli (46 kq) isə Qırğızıstan, Türkiyə və Rusiyadan olan rəqibləri üzərində qələbə qazanaraq finala yüksəlib. Final görüşündə onun da rəqibi Ukrayna təmsilçisidir.

## mozaika

cəmiyyət




# «Hyperloop» nəqliyyat növü

Çin Aerokosmik Elm və Sənaye Korporasiyası (CASİC) «Hyperloop» nəqliyyat növü yaradacağını elan edib. Xubey vilayətinin Uxan şəhərində inşa ediləcək «Hyperloop» maqnit relslərdən ibarət olacaq. Sərnişin kapsulları isə bəzən tunellər, bəzən də yerin üzərindəki mövcud vakuumlu borular vasitəsilə hərəkət edəcək. Güman edilir ki, sərnişin kapsulunun sürəti saatda təxminən 1000 kilometr olacaq.

CASIC Çində ilk, dünyada isə «Hyperloop Transportation» və «Hyperloop One» şirkətlərindən sonra üçüncü müəssisədir ki, bu cür texnologiyanı yaradacağını elan edib. Korporasiya təmsilçilərinin sözlərinə görə, NASA-nın Çindəki analoqu olan bu qurum sistem mühəndisliyi və səs sürətli nəqliyyat vasitələrinin hazırlanması sahəsində yaxşı təcrübəyə malikdir.

biznes

# İKT üzrə bu ilin ən zəngin iş adamları

«Forbes» jurnalı informasiya texnologiyaları üzrə 2017-ci ilin ən zəngin iş adamlarının reytinqini dərc edib.

«Microsoft»un qurucusu Bill Qeyts 84,5 milyard dollar varidatla reytinqin lideri olub. «Amazon» şirkətinin rəhbəri Ceff Bezos 81,7 milyard dollarla ikinci yeri tutub. «Facebook»un yaradıcısı və 69,6 milyard dollar varidata sahib olan Mark Zukerberq isə ən zəngin iş adamlarının reytinqində üçüncü yerdə qərarlaşıb.

İlk dəfə reytinq iştirakçılarının ümumi kapitalı 1 trilyon dolları ötüb, iş adamları ötən illə müqayisədə 21 faiz artıq qazanıblar. Reytinqin tərtibçiləri bunu «Facebook», «Amazon», «Tencent» və «Alibaba» şirkətlərinin səhmlərinin məzənnəsinin artımı ilə izah edirlər. Bu şirkətlərin sahibləri digərləri ilə müqayisədə daha çox varlanıblar.

Reytinqin 50 faizini amerikalılar təşkil edir. Həmçinin ilk onluqda 8 iş adamı ABŞ sakinidir.

texnologiya

# Xərçəngə və infarkta qarşı inqilabi ixtira

Beynəlxalq mütəxəssislərdən ibarət bir qrup alim kanakinumab peyvəndinin eyni zamanda ürək-damar xəstəlikləri və xərçəngin yaranma riskini aradan qaldırdığını müəyyən ediblər.

Aparılan tədqiqatlar zamanı kanakinumab peyvəndi vurulduqdan sonra ölümcül nəticələnmə ehtimalı olanlar da daxil olmaqla, ürək-damar xəstəlikləri riskinin 15 faiz, damarların şuntlanma ehtiyacının isə 30 faizə qədər azaldığı bəlli olub. Xərçəng xəstəliyinin isə, xüsusilə ağciyər xərçəngi riskinin 75 faiz azaldığı müəyyən edilib. Bunun baş vermə səbəbləri hələ də tam aydınlanmayıb. Tədqiqatlarda ortalama 61 yaşında, miokard-infarkt keçirmiş 17,5 min nəfər iştirak edib.




Araşdırmaların həmmüəllifi Pol Ridker deyib: «Həyatım boyunca mən profilaktik kardiologiyanın üç inqilabi dövrünə şahid olmuşam. Bunlardan ilki pəhrizlərin, fiziki aktivliyin və siqaretdən imtina etməyin bu sahədə vacibliyinin qəbul edilməsi, ikinci statin kimi yağların miqdarını azaldan preparatların bizim üçün qiymətini başa düşməyimiz olub. Hazırda isə biz alimlər bu sahədə yeni, üçüncü inqilabi ixtiraya öz qapılarımızı açırıq. Bu çox maraqlıdır».

flora

# Mühitdən asılı olaraq ətrini dəyişir

Tropik bitki sayılan plümeriya təbiətdə 5-8 metr hündürlükdə olan iri ağacdır və daha çox Cənubi Amerika, Karib adaları və ABŞ-ın cənub ştatlarında yayılıb. Plümeriya ətir və təravətini uzun müddət saxladığına görə həmin ölkələrdə qadınlar saçlarını onun çiçəkləri ilə bəzəyir.

Subtropik iqlimli ölkələrdə onu dekorativ məqsədlə park və bağçalarda əkirlər.

Plümeriya ağ, sarı, çəhrayı, al qırmızı və mərcan rənginə qədər çaları olan çiçəklər açır. Adətən hər çiçək 5, bəzi növlərdə isə 4, 6 və ya 7 ləçəkdən ibarət olur, iri çiçək qrupunda toplanır. Plümeriyanın çiçəkləri zərif və xoşagələn ətrə malikdir. Həmin xüsusiyyətinə görə XVI əsrdə italyan zadəganı Franjipani ondan ətir almaq üçün istifadə etmiş və alınan ətrin çaları ətraf mühitdən asılı olaraq dəyişmək xüsusiyyəti daşımışdı. Onun şərəfinə plümeriyanı bəzən franjipani də adlandırırlar.



Yarpağını tökən bitkilərə aid olduğuna görə qış aylarında yaşıl hissəsi tam və ya qismən tökülür. Sükunət dövrü cəmi bir neçə həftə davam edir.

Ev şəraitində dibçəkdə yetişdiriləndə kiçik ağac formasında olur və müasir dövrdə seleksiyaçı alimlər plümeriyanın çoxlu hibrid formalarını əldə etmişlər. Təbiətdə yalnız yayda çiçəkləsə də, otaq şəraitində ildə bir neçə dəfə çiçək açır. Bunun üçün plümeriyaya gün ərzində 6 saatdan az olmayaraq işıqlı mühit yaratmaq və çiçəkləyən bitkilər üçün nəzərdə tutulan mineral gübrələr vermək lazımdır.

maraqlı

# Bal arıları bir-birini sanca bilərmi?

Günəşli yay günlərində eşşəkarısı və bal arılarının adamları sancması çox olur. Lakin bu həşəratlar bir-birini, necə, sanca bilərmi? Alimlər tədqiqat aparıblar və bu suala cavab verməyə hazırdırlar.



Tədqiqatçıların fikrincə, arılar nəinki ətrafdakıları, hətta bir-birini də sanca bilər. Bu cür hal, məsələn, bal arısının yad ailədən bal oğurlamaq cəhdi nəticəsində yarana bilər. Yəni bal arısı yad pətəyə girməyə çalışarsa, oradakı arılar özlərini müdafiə edəcək. Digər hal isə ondan ibarətdir ki, bal arıları bəzi zahiri fərqlərə görə bir-birinə hücum edir.

Ana arı, həmçinin öz rəqiblərini məhv edə bilər. Maraqlı odur ki, bir ailədə yalnız bir şah arı ola bilər. Yeni şah arı meydana gələrsə, əvvəlki onu dərhal məhv edəcək.

**Müdriklər deyib ki...**

*Dünyada bir nəfəslik sağlamlıq qədər səadət və var-dövlət ola bilməz.*

*Qanuni Sultan Süleyman (1494-1566)*

